

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Xoş gəlirsən, 2024...


7

SƏS

№ 242 (6925)

31 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Bir günlük səfər, yüz illik xidmət...


2

**İLHAM ƏLİYEV: "Elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun"**

# Birlik və həmrəyliyimiz!



3

## 2023-cü il radikal müxalifət üçün faciəli sonluqla bitdi


14

## Elektron hökumət- Məqsədi, iş mexanizmi və mahiyyəti



9

## Ermənistana ünvanlanan CİDDİ MESAJLAR


4

## Televiziyalarda korlanan ana dilimiz


12

## Dünya ölkələri Yeni ili necə qeyd edirlər?


11

# Bir günlük səfər, yüz illik xidmət...

## İLHAM ƏLİYEV: "Elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun"



Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva dekabrın 24-də zəfərimizdən sonra Ağdama 6-cı səfərini gerçəkləşdirdi. Qalib Sərkərdə, Prezident İlham Əliyev Ağdam azad olunduqdan 3 gün sonra 2020-ci il noyabrın 23-də rayona ilk səfəri zamanı ürəkdağlayan mənzərəni görərək bütün bəşəriyyətə erməni barbarlığının faşist xislətli simasının təqdim etdi. Ermənilər 27 il ərzində Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdam indi viranəyə çevrilmiş xarabalıqlardan ibarətdir.







### AĞDAM ŞƏHƏRİNDƏ SƏFƏRDƏ OLMUŞ XARİCİ JURNALİSTLƏR ONU QAFQAZIN XİROSİMASI ADLANDIRIRLAR

Prezident İlham Əliyev erməni vəhşiliyi ilə bağlı danışarkən deyib: "Ağdam şəhəri yoxdur, o, dağıdılıb. Ağdam şəhərində qismən dağıdılmış bir məscid qalıb. Biz maraqlananda ki, bütün başqa məscidlər kimi onu nə üçün dağıtmayıblar, bizə dedilər ki, bu, bir növ oriyentir idi, ərazidə səmti müəyyənləşdirmək üçün idi ki, əgər Azərbaycan Ordusu bu istiqamətdə hücuma keçərsə, artilleriyaya hücumun dəqiq oriyentirlərini verə bilsinlər. Keçmiş Ağdam şəhərində, ondan qalan ərazidə səfərdə olmuş xarici jurnalistlər onu Qafqazın Xirosiması adlandırırlar. Mən hesab edirəm ki, bu, Xirosimadan da pisdir. Ona görə ki, Xirosima nüvə faciəsi, atom zərbəsi idi. Lakin oradan vandallar və barbarlar dəstəsi keçməmişdi. Bizə gəldikdə isə Ağdam şəhəri işğal ediləndən sonra dağıdılıb. Füzuli şəhəri kimi, o da bilərəkdən, məqsədyönlü şəkildə dağıdılıb. Biz Ağdamı azad edəndə mən şəhərdəki evlərin birinin üzərində Azərbaycan bayrağı qaldırılmasını əmr edəndə dedilər ki, belə bina yoxdur, minlərlə, on minlərlə insanın yaşadığı böyük şəhərdə bircə bina da qalmayıb. Hamısı yerlə-yeksan edilib. Bu, hərbi cinayətdir. Təkcə şəhərlər deyil, bütün kəndlər də yerlə-yeksan edilib. Bu, elə bir vəziyyətdir ki, dünya bəlkə də son yüzilliklərdə belə vəziyyət görməyib".



Daşı daş üstündə qalmayan, təbiəti viran edilən, dörd tərəfi minalanan Ağdamı Qalib Sərkərdəmiz, Prezident İlham Əliyevin diplomatik qətiyyəti sayəsində bir güllə atılmadan düşməndən azad olundu. Ağdamı ecnəbi jurnalistlər "Qafqazın Xirosiması" adlandırmışdılar. 2021-ci il mayın 28-də - Müstəqillik Günündə Ağdama ikinci səfərində rayon ictimaiyyəti ilə görüşdə Prezident İlham Əliyev dedi ki, əgər ermənilər ən gözəl şəhərimizi 30 ilə viranəyə çevirmişdilərsə, Azərbaycan cəmi bir neçə ilə burada cənnətməkan yaradacaq: "Elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun". Bəli, 30 ilə yaxın erməni vandalizminə məruz qalaraq xarabalığa çevrilmiş Ağdam indi yenidən tikilir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Ağdam üçün yeni dövrün başlandığını, rayonun bərpasının gələcək planlarda xüsusi yer tutacağını bildirmişdi: "Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur".

Bu gün isə, şanlı Qələbəmizdən keçən 3 il müddətində işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Ağdama da həyat yenidən qayıdır. Azadlığına qovuşmuş bu şəhər böyük quruculuq, təmir-bərpa işlərinin şahidinə çevrilir. Bir zamanlar nəinki Qarabağın, eləcə də respublikamızın ən inkişaf etmiş, abad şəhərlərindən olan Ağdamda indi geniş tikinti işləri gedir. İşğaldan azad olunan ərazilərimizin baş planlarına uyğun olaraq müxtəlif infrastrukturların icra prosesi da həyata keçirilməkdədir.

### BİR GÜNLÜK SƏFƏR ZAMANI YENİ UĞURLARIN TƏMƏLİNİN QOYULMASI XİDMƏTİ KİMİ DƏYƏRLƏNDİRİLMƏLİDİR

Sözü imzası qədər keçərli, dediyini qısa zamanda həyata keçirən Azərbaycan Prezidenti Ağdamda xarüqələr yaradır. Cəmi 3 ildə Ağdamda görülən işlərə nəzər yetirdikdə bir daha əmin olursan ki, Ağdam regionun ən gözəl şəhərlərindən birinə çevriləcək.Dövlətimizin başçısı hər səfərində Ağdamda müxtəlif sosial-iqtisadi, ictimai-iaşə obyektlərinin təməlini qoyan, açılışını edir. Bu dəfə də Prezident İlham Əliyev və Birinci xanım Mehriban xanım Əliyeva Ağdamın quruculuğu istiqamətində həyata keçirilən yeni layihələrin təməlqoyma mərasiminə qatıldı, yeni obyektlərin açılışını etdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfəri çərçivəsində "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının, uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolunun açılışlarını etdi və Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasiminə qatıldı. Həmçinin Prezident Ağdam şəhərində dördüncü, beşinci yaşayış komplekslərinin, Qiyaslı, Salahlı, Kəngərli və Baş Qərvənd kəndlərinin təməllərini qoydu, "İmarət" Kompleksində aparılan təmir-bərpa, Ağdam şəhərinin daxili yollarının tikinti işləri ilə tanış oldu.

Bir sözlə, bir günlük səfər zamanı görülən işlər Qalib Lider, Prezident İlham Əliyevin yüz illik xidmətinin təsdiqi, "Qarabağda cənnət yaradacağıq" sözü ilə əməlin bir olmasının göstəricisidir. Beləliklə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, az bir zamanda Qarabağ və bütün işğaldan azad olunmuş ərazilər dirçələcək, bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarına qayıdıb, yaşayıb-yaradacaqlar. Ancaq mənfur düşmən unutmamalıdır, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanlar öz el-obalarına geri dönəcəklər. Artıq insanlar öz el-obalarına geri dönməkdədirlər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ KAMALQIZI**

# Birlik və həmrəyliyimiz!

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan həmvətənlilərimizin təşkilatlanması, ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olub. Diaspor quruculuğu işi daima Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edib. Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi Azərbaycan tarixinin və dövlətçiliyinin şərəfli səhifələrini yaradan Heydər Əliyev olmuşdur. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın azərbaycançılıq ideyası əsasında sıx birləşməsi, ümumi milli diasporun formalaşması və lobbi fəaliyyətinin inkişafı prosesinin başlanğıcını qoydu. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər. Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Azərbaycan diasporu bu gün bir məslək və əqidə ətrafında yetərincə birləşərək, ölkəmizin mənafeyi istiqamətində ardıcıl iş aparır. Qloballaşan dünyada müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaşdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq,




Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 20 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 500-ə yaxındır. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar. Bu gün əsasi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətiliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

Mövcud vəziyyət, belə deməyə əsas verir ki, yeni dünya düzəni və qloballaşma prosesləri nəticəsində, diasporlar yalnız müəyyən dövlətin ərazisində məskunlaşmış eyni milli mənsubiyyətli insanların yaratdıqları ictimai hərəkat və ya birlik kimi nəzərdən keçirilmir, onlar həm də təmsil etdikləri xalqın milli maraqlarının fəal müdafiəçisi kimi də tanınırlar. Bu gün Azərbaycan diasporu dünyanın bütün qitələrində ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Almaniya, İspaniya, Qazaxıstan və İtaliya kimi onlarla dövlətdə fəaliyyət göstərir. Dünya ölkələrində Avstraliya-Azərbaycan-Türk Dostluq Birliyi, Azərbaycan-İsveçrə Türk Cəmiyyəti, Vaşinqton-Azərbaycan Mədəniyyət Mərkəzi, Hyuston Azərbaycanlıları Cəmiyyəti, Amerika-Azərbaycan Şurası, Qafqaz Yəhudiləri Cəmiyyəti və onlarla belə qurumlar diaspora quruculuğu siyasətinin məntiqi olaraq təşəkkül tapıb. Diasporun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlib.

## "MƏN ÇOX İSTƏYİRƏM Kİ, XARİCDƏ FƏALİYYƏT GÖSTƏRƏN DİASPOR TƏŞKİLATLARI DA BİR NÖQTƏYƏ VURSUNLAR, BİRLƏŞSİNLƏR"

Ölkəmizdə keçirilən dünya azərbaycanlılarının qurultayları da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələr sırasındadır. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlir, birliyi və həmrəyliyi nümayiş etdirirlər. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin". Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsinin aparılması dünya azərbaycanlılarının daha da sıx birləşməsinə təkan oldu.

Azərbaycanın bir sıra dünya ölkələrdəki formalaşmış diaspor fəalları Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında mühüm rol oynayırlar. Son vaxtlar ölkəmizin siyasi həyatında baş verən hadisələr zamanı soydaşlarımızın vətən naminə atdığı addımlar, yumruğu bir yerə vurması dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bir amal, məqsəd uğurunda birləşməsinin bariz nümunəsidir. Bu gün əzəli torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan İkinci Qarabağ savaşında qazanılan tarixi Qələbəni bütün dünya azərbaycanlıları yaşadı. Hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycpaanlı həmrəy oldu. Bir yumruq ətrafında birləşirdi. Bu, ən böyük uğurlarımız sırasındadır. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir Azərbaycanlının qəlbi doğma yurdla döyünür. Əlbəttə ki, Azərbaycan dövləti hər zaman həmvətənlərinin yanındadır. Dünya ölkələri tərəfindən tanınması, haqq səsinin dünyaya çatdırılmasında kifayət qədər güclüdür, güclü diasporu formalaşıb.

## "AZƏRBAYCAN XALQI BU DÖVRDƏ DƏ BİRLİK, HƏMRƏYLİK GÖSTƏRƏCƏK, GÜCLÜ İRADƏ GÖSTƏRƏCƏK"

Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılması hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq".

Bildiyimiz kimi, sentyabrın 19-da Qarabağdakı qeyri-qanuni erməni silahlı birləşmələrinin həyata keçirdiyi hərbi təxribatlara cavab olaraq Ordumuz bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlayaraq, yenidən xalqımıza qələbə sevincini yaşatdı. Bölgədə məskunlaşmış qeyri-qanuni erməni silahlı birləşmələri bu tədbirlər nəticəsində zərərsizləşdirildi. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq: "Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır... Əks təqdirdə, "dəmir yumruq" yenə qılınc kimi başlarının üzərindədir və hər an yenidən işə düşə, sarsıdıcı zərbəsini endirə bilər".

24 saata yaxın davam edən və peşəkarlıqla həyata keçirilən əməliyyat nəticəsində dövlətimizin suverenliyi tamamilə bərpa olundu. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev həm ölkəmizdə, həm də xaricdə yaşayan milyonlarla azərbaycanlının arzusunu gerçəkləşdirdi.

***Zümrüd BAYRAMOVA***

# Ermənistana ünvanlanan CİDDİ MESAJLAR








***Qərbyönümlü olması ilə Ermənistan Rusiya tərəfini xeyli vaxtdır ki, qıcıqlandırmaqdadır. Bu vaxta qədər Ermənistan dövlətinin mövcuduğuna görə ruslara borcu olan ermənilərin, xüsusən də Paşinyan hakimiyyətində təmsil olunanların Rusiya əleyhinə mövqe sərgiləmələrini rəsmi Moskvanın qəbul edəcəyini təsəvvür belə etmək mümkün deyil. Rusiya rəsmilərinin artıq ciddi reaksiya vermələrindən görünür ki, ermənilərin nankorluqlarının çoxdandır fərqindədirlər və verilən bəyanatlardan, ünvanlanan mesajlardan da bəlli olur ki, Ermənistanın qərbyönümlü mövqeyi Kreml üçün qətiyyən qəbul edilə bilməz.***

XİN rəsmisi Mariya Zaxarovanın dəfələrlə rəsmi İrəvana ünvanladığı mesajlardan da bəlli olur ki, Ermənistan Moskvanın birbaşa nəzarəti altındadır və ermənilərin istədikləri kimi addım atmasına imkan verilməyəcək. Eləcə də Rusiyanın xarici işlər naziri Sergey Lavrovun özünün də bəyanatları deyilənləri təsdiq edir və bəlli olur ki, Ermənistanın Qərbə meyilli olması, Rusiyaya qarşı nümayişkaranə şəkildə mövqe sərgiləməsi rəsmi Moskvanın səbir kasasını doldurub. Məhz elə buna görə də 2023-cü ilin yekunları üzrə TASS Agentliyinə eksklüziv müsahibəsində Lavrov Rusiyanın Cənubi Qafqazdakı siyasətinin prioritet məsələlərini vurğulayaraq, Ermənistana qarşı bir neçə məqsədyönlü bəyanatlar səsləndirib. Rusiya XİN rəhbəri xüsusən də Gümrüdə 102-ci Rusiya hərbi bazasının mövcudluğunun, fəaliyyətinin davam etdirilməsi ilə bağlı məsələ ilə əlaqədar da İrəvana xüsusi mesajlar göndərib.

Bilirik ki, Rusiyaya məxsus 102-ci hərbi baza və həmin bazanın Ermənistandan çıxarılması ilə əlaqədar erməni cəmiyyətində çoxdandır müzakirələr gedir. Bir çox erməni siyasətçiləri həmin baza ilə bağlı qəti mövqe bildirirlər və onun Ermənistanda qalmasını doğru hesab etmədiklərini açıq şəkildə ifadə edirlər. Onu da bilirik ki, elə Rusiya ekspertlərinin də ən çox müzakirə etdiyi mövzulardan biri məhz 102-ci baza, ermənilərin həmin bazanı öz ölkələrində görmək istəməmələri ilə əlaqədardır. Bu isə o deməkdir ki, Moskva Ermənistanda gedən prosesləri diqqətlə izləyir və çox güman ki, özünün artıq fəaliyyət planı da var. Ukrayna cəbhəsindəki müharibə ilə əlaqədar olaraq, hələlik Rusiya görünür, haylara ”baş qoşmağa” vaxt tapmır. Elə məhz buna görə də Moskva İrəvana qarşı hələ də səbir nümayiş etdirir. Amma bu səbrin sonsuza qədər davam etməyəcəyini ermənilər özləri hamıdan yaxşı bilirlər. Bilirlər ki, Kremlin səbrinin də bir həddi var və heç bir halda ermənilərin ağıllarına gələni edəcəklərinə ruslar göz yummayacaqlar. Ələlxüsus da 102-ci bazanın Ermənistanı tərk etməsi ilə əlaqədar hansısa qərarın verilməsi üçün ermənilərə imkan da, şans da verilməyəcək. Məhz Rusiya Xarici İşlər Nazirliyinin və bir çox siyasətçilərin dövri mesajları dolayısı ilə bunu sübut edir. Elə Sergey Lavrovun da dedikləri, səsləndirdiyi bəyanatlar məhz bu kontekstdə birbaşa Ermənistana ünvanlanan ciddi mesaj hesab olunur.

Rusiya xarici işlər naziri Lavrov Rusiyanın Ermənistanda hərbi bazasının olmasının məqsədəuyğunluğu ilə bağlı fikirlərini açıq şəkildə ifadə edib və bu heç də təsadüfi hesab olunmur. İndi rusiyalı politoloqlar belə hesab edirlər ki, Lavrov öz bəyanatı ilə həmin məsələnin, yəni 102-ci baza ilə əlaqədar məsələnin Rusiya-Ermənistan münasibətlərinin gündəmindən çıxarmaq niyyətini birbaşa ifadə edib. Yəni, qəti və kəskin şəkildə bu barədə fikirlər bildirməklə, bəyanat verməklə, həm İrəvana, həm də Ermənistanın Qərb müttəfiqlərinə də eyni zamanda sərt mesaj göndərməyə çalışıb. Daha dəqiq desək, nəinki Ermənistana, heç həmin ölkəyə dəstək verən, sözügedən baza ilə bağlı erməniləri istiqamətləndirən Qərbə də bunun üçün imkan verilməyəcəyi, hayların buna ümid belə etmələrinin mənasız olması Lavrovun göndərdiyi mesajda öz əksini tapır. ”Biz Ermənistan ərazisində 102-ci Rusiya hərbi bazasının yaradılmasının məqsədəuyğunluğu ilə bağlı müzakirələri belə zərərli hesab edirik. Onun orada yerləşdirilməsinə dair saziş 1995-ci il martın 16-da, ilk növbədə, milli maraqlara və dövlətlərimizin Cənubi Qafqazda sabitliyin möhkəmləndirilməsinə dair ümumi məqsədinə əsaslanaraq bağlanıb”, deyən Rusiya XİN rəhbəri Ermənistanda Rusiya hərbi bazasının yerləşdirilməsinin məqsədəuyğunluğu ilə bağlı müzakirələrin belə zərərli olduğuna işarə edib.

Hadisələrin gedişatı onsuz da fikir bildirmək üçün əsas veridir, amma Lavrovun bəyanatlarından, daha doğrusu mesajından sonra tam aydın oldu ki, Rusiya öz hərbi kontingentinin Ermənistandan çıxarılmasını heç vaxt düşünməyib, heç indi də düşünmür və bu məsələdə qərarı kifayət qədər qətidir. Diqqətə çatdıraq ki, Sergey Lavrov erməniləri məhz Qərbin təhrik etdiyinə də diqqəti cəlb edib. ”ABŞ və Aİ Rusiyadan fərqli olaraq respublikaya və bütövlükdə Cənubi Qafqaza sülh və sabitlik gətirməyə çalışmırlar, onların vəzifəsi tamam başqadır və məqsədləri Moskvanı, eləcə də digər regional gücləri sıxışdırıb sıxışdırmaqdır. Niyyət də, Balkanlar, Yaxın Şərq və Ukraynadan sonra növbəti gərginlik yaratmaqdır”, deyən rusiyalı nazir, Qərbin əsas məqsədini növbəti dəfə bir də təkrarən açıqlayıb. O, bildirib ki, Qərbin məqsədi Ermənistanda sabitliyi təmin etmək yox, Rusiyanı regiondan, Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır. Onsuz da ermənilər Lavrovun bu barədə bir neçə dəfə dediklərini eşidiblər və bilirlər ki, Rusiya tərəfi Qərbin də, Ermənistanın da oyunlarının səbəbini də, məqsədini də yaxşı başa düşür. Onu da bilirlər ki, Rusiya XİN rəhbərinin bu dəfə dedikləri sıradan bir bəyanat yox, ciddi mesajlardır və başa düşürlər ki, bu mesajlardan nəticə çıxarmayacaqları təqdirdə Moskvanı əməllibaşlı ”qəzəbləndirə” bilərlər, hansıki bu da haylara çox baha başa gələ bilər. Elə erməni baş nazir Nikol Paşinyan üçün də, onun hakimiyyət komandası üçün də nə kimi arzuolunmaz nəticələrə səbəb ola biləcəyini özləri hamıdan yaxşı bilirlər, çünki Ermənistanla bağlı Kremlin əlində hansı rıçaqların olduğu ən çox onların özlərinə bəllidir.

Rusiya XİN rəhbəri Ermənistan üçün çıxış yolunu da göstərib. Daha dəqiq desək, Sergey Lavrov bildirib ki, Ermənistan üçün çətin vəziyyətdən yeganə çıxış yolu var, o da İrəvan, Bakı və Moskvanın üçtərəfli razılaşmalarını ən yüksək səviyyədə həyata keçirməkdir. Əslində, tövsiyə kimi görünən bu fikirlər tamam başqa məqamlardan xəbər verir və XİN rəhbərinin dedikləri onu göstərir ki, Rusiya Üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri Ermənistanın yerinə yetirməsində israr etməkdə davam edir və bu dediklərini mesaj olaraq konkret İrəvana ünvanlayır. Daha dəqiq desək, Paşinyan hakimiyyətinə mesaj verilir ki, Üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirməlidirlər və Rusiya bu məsələni birbaşa olaraq diqqətdə saxlamaqdadır. Yəni, birbaşa olaraq çatdırılır ki, başqa istiqamətdə yolları yoxdur və bunu da bir mesaj olaraq qəbul etsinlər.

Rusiyalı nazirin ilk baxışdan daha bir tövsiyyəyə bənzər mesajı da diqqətdən yayına bilməz. O, Ermənistan və NATO arasında dialoqun dərinləşdirilməsinin həmin ölkənin suverenliyinin itirilməsinə gətirib çıxardığın da söyləyib. Lavrov qeyd edib ki, NATO-nun əsl məqsədi regionda öz mövqelərini gücləndirməkdir. XİN rəhbri xüsusilə vurğulayıb ki, həmin qurum regionda parçalanmalarda maraqlıdır. Onun sözlərinə görə, parçalayaraq hökm sürmək, müxtəlif manipulyasiyalar etmək niyyəti göz önündədir. Lavrov qeyd edib ki, NATO heç də Ermənistanın maraqları barədə düşünmür və öz siyasi məqsədləri üçün Cənubi Qafqaz kimi strateji bir regionundakı proseslərdə iştirak etmək niyyətindədir. Biz sözlə, hansısa qüvvələrin, ələlxüsus Rusiya əleyhinə olanların regiona soxulması niyyətinin pərdəarxası məqamları barədə Ermənistana daha bir xəbərdarlıq edilir və rəsmi Moskvanın bu məsələyə həssaslıqla yanaşdığı ilə bağlı da ermənilərə ciddi mesaj verilir.

Əslində, Rusiyalı nazirin xəbərdarlıqları, eləcə də verdiyi sərt mesajlar tamamilə yerinə düşür. Onun dedikləri tam məntiqidir və müşahidələr də təsdiq edir ki, Fransa və ABŞ-la bağlı Ermənistanın xəyalları heç də reallıqla üst-üstə düşən deyil. Sirr deyil ki, Ukraynadan tutmuş Yaxın Şərqə qədər Qərbin bütün dünyada kifayət qədər həll olunmamış problemləri var. Həmin problemlərin həllindən də artıq boyun qaçırmaqdadır və münaqişələri qızışdıran, bir zamanlar ölkələrə xüsusi vədlər verən Qərb artıq heç bir problemin arxasında dayanmaq niyyətində görünmür. Bunu məhz Ukraynanın timsalında görməkdəyik və bilirik ki, artıq ukraynalılara məsələnin özləri tərəfindən həll edilməsi tövsiyyə edilir. Halbuki, Qərbin təhriki ilə, qızışdırması ilə, vədləri ilə münaqişəyə başlayan Ukrayna şəhərləri darmadağın edilib, iqtisadi, hərbi və digər istiqamətlərdə itgilərlə qarşılaşıb. İndi həmin itgiləri kim ödəyəcək? Artıq ukraynalılar özləri bunun öhdəsindən gəlməli olduğu bildirilirsə, deməli, Qərb Ermənistanın problemlərinin həllinə qətiyyən qarışmayacaq. Ermənistanın da Qərbə üz tutacağı, Rusiyadan üz çevirəcəyi, ruslara qarşı xəyanət edəcəyi təqdirdə, erməniləri nələrin gözlədiyi və Moskvanın hansı təsir mexanizmlərindən, hansı rıçaqlardan istifadə edə biləcəyi bəllidir. Məhz Segey Lavrov da bununla bağlı Ermənistan tərəfinə çox ustalıqla sərt mesajlar verir.

Bəli, Rusiya Ermənistanın bir çox qeyri-dost addımlarına hələ də dözür. Aydın məsələdir ki, Ermənistan Rusiyadan uzaqlaşarsa, onun yerini Qərbin tutacağı təkzib edilə bilməz və bununla Kremlin razılaşacağına heç haylar özləri də inana bilmirlər. Amma onu yaxşı bilirlər ki, Qərbin yardımlarına, iyanələrinə arxalanmaq, istər-istəməz suverenliyin itirilməsinə, eləcə də bu arxayınlığa görə heç bir iqtisadi irəliləyiş etməyəcəyi səbəbindən xalqın yoxsullaşmasına, yaxın gələcəkdə də dövlətçiliyin itirilməsinə gətirib çıxara bilər. Bu gün rəsmi İrəvan gah Qərbə, gah da Rusiyaya tərəf yön almaqla, sanki Ermənistanı hərraca çıxarıb və az qala açıq şəkildə bildirir ki, hansı tərəf daha çox yardım edərsə, hansı tərəf daha çox iyanələr edərsə, daha çox dəstək verərsə həmin tərəfə də ermənilər meyl edəcəklər və ölkərini də həmin tərəfin ixtiyarına verəcəklər. Məhz bu məqamda Rusiyanın XİN rəhbəri öz bəyanatı, öz fikirləri ilə diqqətə çatdırır ki, Qərb Ermənistana ancaq söz verir və ancaq verdiyi söz müqabilində İrəvanı ələ aldığı mesajını çatdırır. Sergey Lavrov həmçinin Rusiya hərbi bazasının belə sözlərə, vədlərə inanan ermənilər tərəfindən Ermənistan ərazisindən çıxarılması barədə nəinki qərarlar, heç fikirlərlə də razılaşmayacağı mesajını ötürür. Rusiya diplomatının bununla da Ermənistan rəhbərliyinin iki kresloda otura bilməyəcəyi, bunun ermənilər üçün fəlakət demək olduğu barədə ciddi və sərt mesajlar verdiyi dərhal bəlli olur və həqiqətən də bu mesajların fonunda görürük ki, rəsmi İrəvan doğru, düzgün siyasi xətt seçməyəcəyi təqdirdə birbaşa Moskvanın hədəfində olacaq. Bu isə, hər zaman ruslardan asılı vəziyyətdə olan ermənilər üçün də, Ermənistan üçün də çox böyük bəla deməkdir.

***İnam Hacıyev***

# 2023-cü il yaddaşımızda – ƏN MÜHÜM HADİSƏLƏR

**Ötən illər yaddaşımızda müxtəlif hadisələrə imza ataraq öz yerini yenisi ilə əvəzləyir. Bunların içində şirin, yaddaqalan anlar da olur, ağrılı-acılı günlər də var. Hər bir halı ilə ömür dəftərimizə həkk olan günlərin mahiyyətinə onun ictimai əhəmiyyəti əlavə olunacağı halda artıq bu fərdi hadisədən çıxaraq sosial yüklü mövzuya çevrilir. Biz ötürməkdə olduğumuz ilin məhz ölkə gündəmində təsir gücünə malik ictimai hadisələri vərəqləməklə geridə qoyduğumuz ilin inanclılar üçün hansı əlamətdar hadisəyə imza atdığına nəzər salacağıq.**

2023-cü ildə baş verən digər ən mühüm hadisə silahlı şəxsin Azərbaycanın İrandakı səfirliyinə hücum etməsi oldu. Bir nəfərin ölümü ilə nəticələnən hücum iki ölkə arasında diplomatik gərginliyi pik həddə çatdırsa da, ilin sonuna yaxın münasibətlərdə yumşalma müşahidə edildi.

Buna baxmayaraq, İran səfirliyə hücumun siyasi deyil, şəxsi motivli olduğunu bildirsə də, Azərbaycan hələ də bu versiyanı qəbul etmir və Tehrandan məsələni ciddi araşdırmağı tələb edir.

Millət vəkili Fazil Mustafanın evinə gedərkən silahlı hücuma məruz qalaraq yaralanması isə 2023-cü ilin sui-qəsd hadisəsi idi. Deputat ona edilən sui-qəsdin sifarişinin İrandan gəldiyini bildirdi və bunu İranla bağlı səsləndirdiyi tənqidi fikirlərlə əlaqələndirdi. Bu ittihamlara İranın reaksiyası məlum deyil. Bu, son illərdə siyasi-ictimai xadimə qarşı edilən ilk sui-qəsd idi.

Başa çatmaqda olan 2023-ci il Azərbaycanda bir çox yaddaqalan hadisələrlə müşayiət olundu. Şübhəsiz ki, cəmiyyətimiz üçün bu hadisələrdən ən önəmlisi







Qarabağda həyata keçirilən antiterror tədbirləri nəticəsində erməni separatizminin kökünün kəsilməsi, qondarma "Artsax"ın "liderləri"nin həbs olunaraq Bakıya gətirilməsi, Azərbaycanın suverenliyinin bərpa olunmasıdır.

Bu il ölkəmiz üçün çox uğurlu olub, müxtəlif hadisələr baş verib. Cənab Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan bayrağını qaldırması hər bir azərbaycanlı üçün ən yadda qalan hadisədir. Prezidentin Xankəndi meydanındakı tarixi çıxışı bu ilin unudulmaz hadisələrdən biri idi. Eyni zamanda dövlət başçısının Ağdərə, Xankəndi, Xocalıda üçrəngli bayrağımızı qaldırması ilin əsas hadisələri sırasında yer alır. Bu il Xankəndidə keçirilən hərbi parad ölkə gündəmində ən yaddaqalan hadisələrdəndir. Hər bir azərbaycanlı bu paradla fəxr edirdi.

Ölkəmiz bu il beynəlxalq konfranlara da ev sahibliyi edib, bu da ölkənin nüfuzunu beynəlxalq platformalarda qaldırıb. Digər tərəfdən ölkəmiz beynəlxalq əhəmiyyətli tədbirlərə də ev sahibliyi edib. Həmçinin növbəti il Azərbaycanda COP29 keçiriləcək. Bu qərar ölkəmizi beynəlxalq platformada daha da tanıdıracaq.

Həmçinin növbəti ən yadda qalan hadisə isə növbəti il keçiriləcək olan növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı Prezidentin Sərəncamıdır. Bu qərar ölkənin daha da uğurlara imza atmasına imkan yaradacaq.

Əsir saxlanılan Aqşin və Hüseynin qaytarılması ilin ən sevincli hadisəsi oldu. Aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb. 7 dekabr 2023-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqların nəticəsində humanizm prinsipləri rəhbər tutularaq və qarşılıqlı etimad tədbiri kimi Azərbaycan tərəfindən 32 erməni hərbçinin, Ermənistan tərəfindən 2 azərbaycanlı hərbçinin azad edilməsi barədə razılıq əldə olunub.





## İqtisadi sahədə...

Bəs, 2023-cü il daha çox hansı iqtisadi hadisələrlə yadda qaldı? İlin əvvəllərində minimum əmək haqqı 300 manatdan 345 manata qaldırıldı. Minimum pensiya 240 manatdan 280 manata yüksəldi. Aprel ayında 2020-ci ildən bəri artan inflyasiya zəifləməyə başladı. 2023-cü ildə 25 bankdan 2-ni itirdik. Bu il neft gəlirləri ilə qaz gəlirləri birbirinə yaxınlaşdı. Bu ilin 11 ayında 12 milyard dollarlıq qaz satmışıq. Neftdən gəlirimiz isə 15 milyard dollardan bir qədər artıq olub.

Mərkəzi Bank pul siyasətini dəyişdi. Nəticədə ilin 9 ayında uçot dərəcəsi artırıldı. Sonuncu rübdə isə faiz dərəcələri aşağı salındı. Ona görə də 2023-cü il Mərkəzi Bankın maliyyə alətlərindən aktiv istifadə etməsi ilə yadda qaldı.

2023-cü ilin ən xoş xəbəri inflyasiyanın zəifləməsi oldu. İlin sonuna yaxın inflyasiya 2 rəqəmli həddən 1 rəqəmli həddə düşdü. Bu tendensiya davam edəcəksə, bu çox müsbət bir yenilikdir. Digər bir müsbət hadisə inflyasiyanın zəifləməsi fonunda qiymətlərdə sabitliyin yaranmasıdır. Qiymətlərdəki sabitlik hər birimizin həyatına birbaşa təsir edən amildir.

## Dünyada bu il nə baş verib?

2023-cü il İsraillə HƏMAS arasında başlayan, Rusiya və Ukraynanın davam edən müharibələrindən tutmuş, Türkiyədə, sonra isə Mərakeşdə baş verən dağıdıcı zəlzələlərə qədər bir çox hadisə ilə yadda qaldı.

*Ardı Səh. 6*

# 2023-cü il yaddaşımızda – ƏN MÜHÜM HADİSƏLƏR

Əvvəli Səh. 5



## İsrail-HƏMAS müharibəsi

Müharibənin başlamasına səbəb HƏMAS "komando"larının oktyabrın 7-də Qəzza zolağından İsrailin cənubuna sızaraq sərhədyanı qəsəbələrə basqın etməsi olub. Qəzzada müharibə başlayandan bəri ölənlərin sayı 21 110 nəfərə çatıb, 55 243 nəfər isə yaralanıb.

## Rusiya-Ukrayna müharibəsinin davam etməsi

24 fevral 2022-ci ildə Rusiyanın hücumu ilə başlayan müharibə bu ildə dünyanın gündəmi oldu. Rusiya ordusu cari ilin yanvar ayında Ukraynanın şərqindəki Donbass bölgəsinə yenidən hücuma keçdi. Moskva ən uzun və qanlı müharibədən sonra Baxmutun tutulduğunu elan etdi.

Kiyev iyun ayında Moskvanın işğal etdiyi əraziləri geri qaytarmaq üçün əks hücuma keçdi, ancaq cənubda və şərqdə bir neçə kəndi geri ala bildi.İyunun 24-də Vaqner qrupunun üsyançı döyüşçüləri Moskvaya doğru yürüş etdi. Prezident Vladimir Putinin sərt mövqeyindən sonra geri çəkilən qrupun lideri Yevgeni Priqojin iki ay sonra təyyarə qəzasında dünyasını dəyişdi. Kiyev noyabrın ortalarında rus ordusunu cənubdakı Xerson vilayətində bir neçə kilometr geri çəkdiyini iddia etdi.





## Türkiyədə və Mərakeşdə zəlzələlər

Fevralın 5-dən 6-na keçən gecə Türkiyənin cənub-şərqində və Suriyanın şimalında son 100 ilin ən ölümcül zəlzələlərindən biri baş verib. 7,8 bal gücündə baş verən zəlzələdə ən azı 56 min insan həyatını itirib.

Mərakeş sentyabrın 8-də güclü zəlzələ nəticəsində silkələnib. 6,8 bal gücündə zəlzələ nəticəsində 3000-ə yaxın insan ölüb, 5600-dən çox insan yaralanıb. Zəlzələ 3000 kənddə 60 min evə ziyan vurub.





## Afrikada çevrilişlər



2023-cü ildə Afrikada iki hərbi çevriliş olub. Nigerin Sahel bölgəsində ordu iyulun 26-da "təhlükəsizlik vəziyyətinin pisləşməsini" əsas gətirərək hakimiyyəti ələ keçirib. Devrilmiş prezident Mohamed Bazoum o vaxtdan bəri öz iqamətgahında təcrid olunmuş vəziyyətdə saxlanılır.

Qabonda Ali Bonqo Ondimbanın hakimiyyəti qanun pozuntularına görə tənqid edilən prezident seçkilərindən dərhal sonra avqustun 30-da hərbi çevrilişlə sonlanıb. Çevrilişlə 55 illik Bonqo hökumətini devirən və hərbi idarənin başçısı olan general Brice Oliqui Nguema ölkədəki qurumların daha demokratik olacağına söz verib.

Aprelin 15-dən Sudanda general Əbdülfəttah əl-Burhanenin rəhbərlik etdiyi ordu ilə keçmiş komandir Məhəmməd Hamdane Daqlonun hərbiləşdirilmiş qüvvələri arasında davam edən müharibə 10 mindən çox insanın ölümünə səbəb olub.

Fransa 2022-ci ildə Mali və Mərkəzi Afrika Respublikasından, 2023-cü ildə isə digər iki keçmiş müstəmləkəsi- Burkina Faso və Nigerdən qoşunlarını çıxarmalı oldu.

## Yüksək temperatur və yanğınlar

Avropanın Kopernik rəsədxanasının məlumatına görə, iyundan oktyabr ayına qədər olan aylar dünyada rekordlar üzrə ən isti aylar olub. Bu temperaturlar quraqlığa, dağıdıcı yanğınlara və daha güclü qasırğalara səbəb oldu. Kanada bu il tarixi meşə yanğınları mövsümü yaşadı, 18 milyon hektardan çox ərazi yandı və 200.000 insan didərgin düşdü. Avqust ayında Havay adalarında baş verən yanğınlar Maui adasının Lahaina turizm şəhərində 97 nəfərin həyatına son qoyub.

Avropa İttifaqında indiyə qədər qeydə alınan ən böyük yanğın Yunanıstanın Evros bölgəsində baş verib.Yanğında ən azı 26 nəfər ölüb. Sentyabr ayında sellər Fesaliyanın münbit düzənliklərini viran qoymuş və 17 nəfərin ölümünə səbəb olmuşdur.




Beləliklə, dünyada və planetimizin cənnət guşəsi Azərbaycanda həyat öz axarını 2024-cü ildə də davam etdirəcəyinə inanırıq. Ona da inanırıq ki, gələn təqvim ili ölkəmizə, xalqımıza xoşbəxtlik, firavanlıq gətirəcək...

**V.VƏLİYEV**

# Xoş gəlirsən, 2024...



2023-cü ilin son günündəyik. Bir il də ömür kitabımızın bir vərəqini, beləcə, çevirdi, bir il də ötdü həyatımızdan, deyirik. Bəli, ötür, ötəcəkdir də, zaman adlı köhlən atı kim saxlaya bilər ki? O çapır, gün keçir ay olur, aylarsa illəri əvəzləyir. Fəsillər dəyişir... Bahar yay, payızsa qış olur. Necə də bənzəyir insan ömrünə. Bahar gənclik, yay orta yaş, payız qocalıq, qış da ahıllıq. Ötür zaman, insan elə ki bahardan yaya boylandı, oradan da payıza bir nəzər saldı, payızın füsunkar yarpaqtökümünü izlədi, deməli, bir il də yollanır öz arxivinə. Çünki yarpaq tökümü təbiətin yaşlanması, ahıl çağının çatması, bəyaz saçlarına sığal çəkərək "bir ili də başa vurdum", deməsidir. Şair demişkən:

*Ağacdan yarpaqlar endikcə bir-bir,*
*İl də arxasından atır yükünü.*
*Təqvimin kötüyü üstündə əsir,*
*Tək qalan son varaq - ilin son günü.*

İlin tamamında ötən günlərə nəzər salan insan sanki onun qiymətini verir. "Bu il mənim üçün uğurlumu, uğursuzmu oldu",- deyə ya onu ittiham edir, ya da əzizləyir, kaşki heç bitməzdi, - deyir. Nədənsə, ilin son günlərində həmişə ötən illərlə bağlı xatırladığımız anlar olur. Bu xatirələr sanki ömür vərəqlərinə hopubmuş kimi zamanı çatanda yenilənir, o günləri xatırladır bir daha - qayğısız uşaqlıq illərini, qışda qarın yağmasını səbrsizliklə gözlədiyimiz günləri... Axşamdan qar yağdığını görərkən səhərədək sevincdən yata bilmədiyimiz günlər xatırlanır. Səhəri gün xizəkləri götürüb sürüşməyə getməyimiz, qartopu oynamağımız, bir-birimizi yerə yıxıb qarla islatmağımız, yorulmağın nə olduğunu bilmədiyimiz günlər keçir gözlər önündən.

Məktəblərdə keçirilən yeni il şənlikləri, bu şənliklərə bir ay əvvəldən hazırlaşmağımız, şeirlər əzbərləməyimiz, səhnəciklər hazırlamağımız kimi şirin xatirələr ola bilərmi? Məktəbdə böyük, təbii şam ağacının bəzədilməsi, onun ətrafa yayılan özünəməxsus ətri elə bil o illərin qoxusunu hər an burnumuza gətirir. Artıq o illərdən sonra sanki nə şam ağacları o ətri verir, nə yeni il şənlikləri o qədər gözəl, şirin olur. Həmin illərdən sonra qarın da ovaxtkı qədər yağdığını görə bilmədik. O vaxt-bu vaxt xizəklər bayıra çıxarılmadı ta, nə qar topu oynadıq, nə islandıq, nə də üşüməyin nə olduğunu bir daha hiss etmədik. Onlar sadəcə xatirələrə hopdu, "xatirələr" adlı evlərə yerləşdilər və qapıları açılandan-açılana sadəcə xatırlananlar oldular.

İlin bu günləri ölkəmizin iqtisadi böhranla üzləşdiyi gənclik illərimizi də gözlər önünə gətirir. Sovet ittifaqının buxovundan güc-bəla ilə azad olub, müstəqilliyimizi yenicə bərpa etdiyimiz həmin illər sosial-iqtisadi vəziyyətin könülaçan olmaması, ərzaq qıtlığı səbəbindən insanların sıxıntı içərisində yaşaması,



ürəkləri istəyən kimi süfrələr aça bilməməsi, soyuq, bəzən qaranlıq evlərimiz heç vaxt unuda bilmədiyimiz günlərdir. Çünki yaxşı dərk edirdik ki, əsarət zəncirlərini öz əllərimiz ilə didib-dağıdıb, parça-parça edib ayaqlar altına atmışıq, müstəqil yaşamaq əzmi ilə mübarizəyə qalxmışıq. Tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində müstəqillik asan əldə olunmayıb. Bu yolda qanlar da axıdılıb, övlad, ər, sevgili həsrəti yaşanıb, aclıq, səfalət hökm sürüb. Lakin səbir, dözüm, iradə xoş günlərin, bəxtəvər illərin müjdəsi olub.

Gəncliyimizə tuş gələn müharibə, Qarabağımızın işğal olunması, 20 Yanvar, Xocalı kimi faciələr yaşamağımız illəri bir-birnin arxasınca kədər və qüssə ilə tarixin arxivinə atırdı. Hər ötən ildən bizə qalan qəlb ağrısı idi. Sanki ilin bütün fəsilləri qış idi. Soyuq, günəşsiz həyat başımızın üstünü kəsmişdi. Həmin illər nə illərin başa çatdığının, nə də yeni ilin həyatımıza daxil olduğunun fərqində belə deyildik.

Bax, beləcə, o illərə hamı birlikdə - eyni qayğılarla yekun vururdu, hər ötən il hamı üçün eyni təəssüratlarla yadda qalırdı. Yeni ilə könülsüz salam verib, əlini sıxırdıq - bəlkə, bu yeni il hər şey düzələr - deyə. Deməli, ümidlər sarsılmırdı. Qışın şaxtası, soyuğu bu ümidləri qamçılayıb yoxa çıxara, puç edə bilmirdi.

İllər ötür, bir-birinin yerini alır. Biz isə torpaqlarımızın azad olunacağı günü gözləyir, həmin tarixdən bayramların, şənliklərin ömrümüzə qədəm qoyacağına icazə verəcəkmiş kimi o günlərin yaşanmasını gözləyirdik. İllərsə o zamanı gətirib çıxaracaqdı. Hər yola saldığımız köhnə ildə başımıza gələn müsibətləri xatırlayır, gələn yeni ildən tək istəyimiz torpaqlarımızn azad olunması olurdu. Çünki biz onlarsız tam deyildik. Qarabağ işğal altında olduğu halda, düşmənin əlində, ayaqları altında olduğu vaxt nə bayram, nə yeni il, nə şadyanalıq?..

Könlümüz açılmırdı, günahkar hesab edirdik özümüzü. Sanki ilin xəstə övladımıza şəfa verə bilmirdik, onu müalicə etdirə, həkimə apara bilmirdik. Övladımız isə gözlərimiz önündə günü-gündən saralıb-solurdu. Bax, Qarabağ qara bəxti ilə gözlərimiz önündə bir övladımıza edə bilmədiklərimiz qədər çarəsiz dayanırdı. Bizsə ona baxır, gözümüzün yaşını ələyir, gücümüzün sadəcə buna çatmasına yanıb-yaxılırdıq.

Həqiqətən illər ömür kitabının vərəqləridir. Bu vərəqlərə nə talelər, nə qismətlər yazılır... Minlərlə soydaşımız ötən bir qərinəyədək zamanın ömür kitabının səhifələrinə yalnız göz yaşlarını hopdura bildilər, hicranı, həsrəti yazdırdılar. Qərib qəbirlərini, həsrətində olduqları yurdlarının hicranını yazdırdılar. Onlar yurd həsrəti ilə qovrulub yanıb-yaxıldıqlarını o səhifələrə həkk etdilər. "Qoy qalsın bu səhifələrdə, qalsın ki, qonşu dediklərimizin başımıza gətirdikləri oyunları gələcək nəsillər də bu səhifələrdən oxusunlar, öyrənsinlər. Çünki keçmişini bilməyən gələcəyinin də qədrini bilə bilməz", - söylədilər.

İllərsə ötdükcə bizləri torpaqlarımıza yaxınlaşdırırdı. Gənclik çağlarımızda ölkəmizdə şahidi olduğumuz iqtisadi böhran arxada qalırdı. Ölkəmiz gündən-günə inkişaf edir, müstəqil bir yolda müstəqil addımlarla irəliyə hərəkət edirdi. Bu inkişaf isə ordumuzun güclənməsi, ordumuzun güclənməsi isə torpaqlarımızın geri qaytarılacağı günü yaxınlaşdırırdı.

Dövlətimizin başçısının ötən 20 ildə bütün bayramlarda xalqımıza müraciətlərini xatırlayırıq. Bu müraciətlər tək bayram münasibətilə xalqa təbrik deyildi, həm də onlara verilən böyük bir ümid idi. Ağrılı yaralarımızın sağalacağı günü səbirlə gözləməyimizə çağırış idi. Bu müraciətlər xalqın liderinin onun arzularını bir gün reallaşdıracağına verdiyi söz idi.

2020-ci il... Zəfər, qələbə ilimiz, torpaqlarımızın işğaldan azad olunan ili. Minlərlə övladımızın şəhid, yüzlərlə övladımızın qazi olması hesabına qazandığımız qürur ilimiz. Sən demə 2019 bizim Qarabağsız qarşıladığımız son ilimiz olacaqmış. 2019-cu il dövlətimizin başçısının 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza müraciətində işğal altında olan torpaqlarımızdan sonuncu dəfə bəhs etməsi ili idi. Qarşıdakı 2020-ci il Zəfəri ilə ömrümüzə-günümüzə günəşli günlər gətirdi. 2020 bizə şərəfimizi, ləyaqətimizi qaytardı. Hər dəfə Qarabağdan söhbət düşəndə aşağı dikdiyimiz başımızı yuxarı qaldırmağı bəxş etdi.

Ali Baş Komandanımız cənab İlham Əliyevin 17 il ərzində apardığı böyük siyasət nəticəsində 2020-ci ilin tarixinə Zəfər sözünü yaza bildik. Ulu Öndərimiz Heydər Əliyevin torpaqlarımızın işğaldan azad olunması ilə bağlı vəsiyyətini reallaşdıra bildik. Xalqımız başını dik tutdu. Birliyimiz, həmrəyliyimizlə, böyük sərkərdəmizin arxasında möhkəm dayanmağımızla qələbəni qazana bildik. Biz Qarabağımızı xilas etdik. Onu anası Azərbaycana qovuşdura bildik. Qarabağın baş tacı, döyünən ürəyi Şuşanı azad etdik. Şuşa qəhrəman, igid övladlarımızın əlləri, dağadaşa sürtünən sinələri, böyük əzmləri ilə geri alındı. Böyük bir hərbi əməliyyatla Şuşa tarixin səhifələrinə Azərbaycan ordusunun möhtəşəmliyini yazdı.

Qarabağda, budur, üç ildir başlanan quruculuq, bərpa işləri sanki hər gün həyatımıza bayram, şadyanalıq kimi xoş anlar qatır. Düşünəndə ki, soydaşlarımız öz ata-baba yurdlarına, ev-eşiklərinə qayıdırlar bu, bizim üçün hər günü bayram edir.

Bu il-2023-cü ilin 20 sentyabrı isə bütövlükdə bir 365-ə bərabər bir gün oldu. Milli Ordumuz Xankəndidə antiterror əməliyyatı apararaq burada yuva salmış erməni daşnaklarını yerlə yeksan etdi. Beləliklə Azərbaycanın konstitusuya quruluşu, ərazi bütövlüyü bərpa oldu. Xankəndi, Xocalı, Xocavənd, Əsgəran, Ağdərə anası Azərbaycana qovuşdu.

Artıq 2020-ci il də daxil olmaqla, dördüncü ildir ki, yeni ili könlüaçıq qarşılayırıq. Çünki qəlbimizdən dağ boyda bir düyün açılıb, atılıb. Hicranımız üzərində vüsal qələbə çalıb. Torpaqlarımızın işğalı üzərində azadlıq qələbə çalıb. Məcburi köçkünlüklərimizin yurda qayıdışı qələbə çalıb.

İndi qış fəslidir. Lakin Qarabağ artıq üç ildir ki, bir fəsli yaşayır-bahar fəslini. Sanki baharın gözəlliyindən doymur, onun yerini başqa fəsillərin almasını istəmir. Çünki 30 il idi ki, baharı qovmuşdu, "get, azadlığım gələndə gələrsən",- demişdi. Gülünü-çiçəyini sinəsindən yolub atmışdı. "Gedin, azadlığım gələndə siz də gəlib könlümü bəzəyərsiniz",- demişdi. Allı-güllü yaylığını çıxarıb başına qara bir şal salmışdı. Günəşi qovmuşdu, dumana bürünmüşdü, "mən günəşi bir də azad olunanda qarşılayacağam",- demişdi.

Budur, qışdır. Lakin Qarabağda yazdır, bahardır. Üç mindən artıq şəhidimiz, yüzlərlə qazimiz bu yurd yerimizə baharı gətirib. Qarabağ allı-güllü donunu geyinib, başından qara şalını açıb, qırmızı bağlayıb. Bu yerlərə artıq günəş doğur və o günəş heç qüruba enmir. Enməyəcək də. Çünki bu günəş əbədiyyən doğub.

İlin son günü... Son 30 ili düşünürsən... Nə illər yola salıb, nə illər qarşılamışıq. Biz illərlə nə kimi tarixlərlə, hadisələrlə bir 365-i başa vurub, digər 365-i qarşılamışıq. Acısı şirinindən qat-qat çox illəri... Şükürlər olsun ki, artıq o illər tarixin arxivinə yollandı. Dördüncü yeni ildir ki, qəlbimiz açıq, başımız dikdir. Bizim bu ildən yeni ilə danışmalı nələrimiz var...

Bütün bu gözəlliklərin fonunda düşünürsən ki, nə yaxşı ki ötən illər yaşanıb, müstəqil olmuşuq. Nə yaxşı ki ötən illər yaşanıb, qədirbilən olmuşuq. Gəl, 2024, gəl, vərəqlə ömür kitabımızı. Gəl, əl-ələ verək, həmrəy olaq, yeni bir tarix yazmağa başlayaq. Şair demişkən:

*Qəlbimizin odundan*
*Alovlansın hər ocaq.*
*Biz nə zaman bir olsaq,*
*O gün bayram olacaq*

Əlvida 2023, xoş gəldin 2024! Qədəmlərin uğurlu olsun. Gəl, yeni il, gəl, aç ömür kitabımızın 2024-cü səhifəsini, yaz ora şairin bu misralarını:

*Ötür illər, fəsillər,*
*Günlər dönüb aylanır.*
*Ömrümüzə bu axşam*
*Bir gələcək boylanır*

***Mətanət Məmmədova***



## Müdrik Sərkərdə!

Ali Baş Komandan, Prezident İlham
"Dəmir Yumruq",
Öz qüvvənə inandın.
Qarabağı işğaldan azad etdin,
Xalqımızın etibarın qazandın.

***

20 il öncə çox cavan idin,
Özünə yük etdin ağır vədləri.
Çətinlik əzabın çəkərəm dedin:
Mətinliklə yola saldın illəri.

***

62 yaşlı Müdrik Sərkərdə,
Görkəmin vüqarlı, cavansan hələ.
Şücaətin bəlli hər bir ölkədə,
Dünyaya səs salıb düşmüsən dilə.

***

Bir daha əsməsin səmum yelləri,
Düşmənin qırılsın vuran əlləri.
Mehriban xanımla xalqa dayaqsız,
Sizə hədiyyədir bəşər gülləri !..

***Ofelya Mürsəlova,***
***APDU-nun sabiq baş müəllimi***

# Rusiya Ermənistanı sərt cəzalandıracaq

## Siyasi şərhçilərin fikrincə, bu ölkəni Suriyanın və Ukraynanın taleyi gözləyir

**Ermənistanda anti-Rusiya ovqatı hər gün yüksəlir. Erməni saytları bu ölkənin əleyhinə silsilə yazılar dərc edir, siyasətçilər, ziyalılar isə tez-tez Rusiyanı ittiham edən açıqlamalar verirlər. Xüsusilə Ermənistanın baş naziri Nikol Paşinyan son dövrlər anti-Rusiya çıxışlarını açıq mətnlə ifadə edir. O cümlədən bu ölkə artıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) təlimlərindən də imtina edib. Əvəzində ABŞ-la birgə təlimlər keçirir və Avropa İttifaqı (Aİ) müşahidə missiyasına üstünlük verir. Yəni, rəsmi İrəvan Azərbaycanla sərhəddə gərginlik iddiasını ortaya ataraq hər vəchlə Aİ-nin Ermənistanda missiyasının genişlənməsinə çalışır.**



Erməni mediasında yer alan xəbərlərə görə, Avropa İttifaqının müşahidə missiyası Tavuş vilayətinin İcevan şəhərində əməliyyat mərkəzi açıb. Bu barədə qurumun hesabında məlumat yerləşdirilib. Lakin bazanın hansı işləri aparacağı, hansı əməliyyatları icra edəcəyi açıqlanmır. Bu, artıq Aİ-nin Ermənistandakı üçüncü mərkəzidir. Sonuncu avqust ayında Qafanda açılmışdı. Aİ-nin Ermənistandakı müşahidə missiyasının sayının artırılmasının yalnız bir məqsədi var - KTMT-dən uzaqlaşmaq, ardınca da rus qoşunlarının Ermənistandan çıxarılmasına başlamaq. Ermənistanda Rusiya və onun himayəsində olan təşkilatlara inam və etibarın minimuma enməsinə səbəb kimi Azərbaycanla İkinci Qarabağ müharibəsində lazımi dəstəyin olmaması göstərilir. Halbuki, barədə KTMT-nin Nizamnaməsində belə bənd var ki, təşkilat yalnız üzv dövlətlərin ərazisinə hücum



olarsa hərbi müdaxilə etmək zərurəti yaranar.

Hətta İkinci Qarabağ müharibəsində Ermənistanın sərhəddə gərginlik yaratmaqla KTMT-ni münaqişəyə cəlb etmək kimi məkrli planı da baş tutmadı. Məhz bundan sonra Ermənistan hakimiyyəti Rusiya və onun himayəsi ilə qurulan bir çox təşkilatlardan qeyri-rəsmi formada imtina etməyə başladı. Əvvəlcə baş nazir Nikol Paşinyanın yaxın ətrafına daxil olan məmurlar, sonra isə özü dəfələrlə bu quruma üzvlüyün əhəmiyyətsizliyini vurğuladılar. Baş nazir sonuncu müsahibələrində daha irəli gedərək bu təşkilatın Ermənistanın maraqlarını qorumaq iqtidarında olmadığını bəyan etdi.




Bəli, geosiyasi kursunu dəyişən rəsmi İrəvan artıq Avropa İttifaqına daxil olan ölkələrlə yaxınlaşır, təşkilatın Ermənistan ərazisində missiyasını genişləndirməyə çalışır. Amerikalı milyarder Corc Sorosun planına uyğun olaraq ABŞ-la əməkdaşlığın genişləndirilməsi, hətta onunla birgə hərbi təlimlər keçirilməsi də bu planın tərkib hissəsidir.

Ermənistanın KTMT-dən uzaqlaşmağa çalışmasının daha bir nümunəsi bu ölkənin təşkilata hələ də nümayəndə təyin etməməsidir. Əvəzində Ermənistanın bu təşkilatdakı keçmiş xüsusi nümayəndəsi Viktor Biyaqov Haaqada xüsusi nümayəndə təyin edilib. Məlumdur ki, Rusiyanın inhisarındakı KTMT təkcə postsovet məkanında nəzarəti əldə saxlamaq üçün yaradılmayıb. Bu, həm də NATO-ya alternativ kimi yaradılıb. Rusiyada etiraf edirlər ki, uzun illər təşkilatda çalışan, onun bütün planlarından və strategiyasından xəbərdar olan Viktor Biyaqovun Avropaya göndərilməsi ermənilərin KTMT-yə vurduğu növbəti zərbədir.



Paşinyan hakimiyyəti bu qənaətdədir ki, Ermənistanın Rusiyadan asılılığı ən yüksək həddədir və bundan yaxa qurtarmaq lazımdır. Onun qənaətincə, Rusiyanın yerini Qərb və digər tərəfdaşlar tutmalıdır. Bir sözlə, ermənilər artıq Rusiyanı tərəfdaş kimi görmür və onu satqın hesab edirlər. Əslində, Ermənistanın Rusiyadan asılılığa son qoyması heç də asan məsələ deyil. Ona görə ki, Ermənistana təkcə hərbi deyil, həm də iqtisadi cəhətdən də Rusiyadan asılıdır. Burada ən böyük istehsalat müəssisələrindəki payın böyük hissəsi Rusiyanın əlindədir.

Bundan başqa, anti-Rusiya cəbhəsinin lideri Nikol Paşinyan, indi eyni zamanda, Rusiyapərəst müxalif qüvvələrlə də mübarizə aparır. Yəni, bu işdə Paşinyana sadəcə rəhbəri olduğu azsaylı Soros komandası dəstək verir. Bütün bunların fonunda ölkədəki Rusiyanın təsiri altında olan qüvvələr də xeyli fəallaşıblar.

Bu gün ermənilər gərgin günlərini yaşayırlar. Çünki Ermənistan mövcud olduğu gündən bəri ilk dəfədir ki, ağasına- forpostu olduğu Rusiyaya qarşı soyuq müharibə elan edib. Hətta yaxın gələcəkdə hayların MDB və Avrasiya İqtisadi İttifaqından da imtina edəcəkləri gözlənilir. Bu barədə ötən günlərdə, Sankt-Peterburqda keçirilən Avrasiya İqtisadi İttifaqı iclasında Nikol Paşinyan bu təşkilatın siyasiləşdirilməsinin əleyhinə çıxış edərək eyham vurdu ki, bu təşkilat da artıq Ermənistan üçün maraqlı deyil. Analitiklərin fikrincə, Rusiya Ermənistanın bu və digər nankorluğunu cavabsız qoymayacaqdır.

Xüsusilə hazırda Avropa İttifaqının, xüsusilə də ABŞ-ın Ukraynaya maliyyə və hərbi istiqamətlərdə ki, yardımlarında axsamaların olması Rusiyanın cəbhə bölgəsində güclənməsinə şərait yaradır. Bu proses indi bütün dünyanın diqqət mərkəzindədir. Hətta Qərbə meyilli ölkələrin də davranışlarında bir qeyri-müəyyənlik yaşayır. Xüsusilə bir neçə ildir ki, anti-Rusiya xətti yürüdən Ermənistanda artıq anlayırlar ki, ölkələrinin bu addımı vaxtından əvvəl başlamış prosesdir və bu dəyməmiş meyvənin dərilməsi kimi bir şeydir ki, onun da heç kimə faydası olmaz

***Elçin Zaman***



# Elektron hökumət- Məqsədi, iş mexanizmi və mahiyyəti

*Yaşadığımız əsr informasiya və yüksək texnologiyalar əsridir. İnkişaf etmiş texnologiya məhsulları həyatımızın ayrılmaz hissəsinə çevrilib. İnformasiya texnologiyalarının inkişafı günümüzdə müxtəlif təyinatlı təşkilatların, şirkətlərin, dövlət qurumlarının strukturuna, işləmə prinsipinə, performansına və dəyişməsinə təsir edən əsas amillərdən biridir. Tədricən idarə və müəssisələrdə dolablardakı kağızların yerini kompüterdəki "byte" lar tutur.*




## Elektron Hökumət nədir?

"Elektron Hökumət"in tərifinə gəlincə, bunu dövlət sturukturları daxilindəki sənədləşmə prosedurları, o cümlədən hüquqi və fiziki şəxslərə göstərilən xidmətləri informasiya texnologiyalarının vasitəsi ilə həyata keçirmə prosesi kimi xarakterizə etmək olar. Elektron hökumət və ya e-hökumət- hər hansı bir ölkənin dövlət strukturlarının hamısı haqqında məlumatların hər bir vətəndaş üçün açıq olan şəbəkədə yerləşdirilməsi deməkdir. E-hökumət klassik dövlət formatında göstərilən xidmətlərin daha sürətli, zaman və maliyyə cəhətdən daha səmərəli olması ilə fərqlənir. Əsrimiz sürət əsridir və elektron hökumətin bu əsrdəki üstünlüyü də əvəzedilməzdir.

Doğru tənzimlənmiş e-hökumət modeli, ölkənin iqdisadi yüksəlişinə, ictimai-siyasi inkişafına, yaşam standartlarının yüksəlməsinə və ən əsası demokratiyanın gücləmməsinə böyük təsir göstərir. Çünki e-hökumət özü ilə bərabər sağlam e-ticarət və "elektron" demokratiyanı da gətirir. "Elektron Hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır.

## E-hökumət modelinin məqsədi nədir?

Yaradılan imkanların əsas məqsədi sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün "bir pəncərə" prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi "Elektron Hökumət" portalı tətbiq edilir.

Ölkəmizdə "Elektron Hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılıb.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 14 mart 2018-ci il tarixli 1885 nömrəli "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmış "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron Hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərir və müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirir.




## Koordinasiyalı iş planı

"Elektron Hökumətin İnkişafı Mərkəzi" dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirmək məqsədi ilə əlaqələndirici qurum funksiyalarını yerinə yetirməklə yanaşı xidmətlərin əhali arasında təbliğatının da həyata keçirilməsindən məsuldur.

Mərkəz, müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsini təmin edir.

Mərkəzin fəaliyyət istiqamətləri başlıca olaraq elektronlaşdırılmış dövlət xidmətləri, e-viza verilməsi və rəqəmsal ödəniş sistemləri üzrə xidmətləri əhatə edir. Qeyd olunan sahələrdə xidmət keyfiyyətinin yüksəldilməsi, xidmətdən yararlanmanın asanlaşdırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə qabaqcıl beynəlxalq təcrübələr araşdırılmış və vətəndaş ehtiyacları nəzərə alınmaqla innovativ yeniliklər tətbiq olunmuşdur.

"Elektron Hökumətin İnkişafı Mərkəzi" dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsini və elektron xidmətlərin göstərilməsini "Elektron Hökumət" portalı vasitəsilə təşkil edir. Eyni zamanda, "Elektron hökumət" portalının idarə olunmasını və fəaliyyətini təmin etməklə yanaşı təkmilləşdirmə tədbirlərini də davam etdirir. Sözügedən tədbirlər vahid elektron kabinet və onun daxilindəki digər funksiyaları əhatə edəcək "Elektron hökumət"in yeni modeli çərçivəsində həyata keçirilməkdədir. Mərkəz tərəfindən həmçinin elektron xidmətlərin, o cümlədən dövlət-biznes (G2B - government to business), biznes-dövlət (B2G - business to government) istiqamətlərində elektron xidmətlərin inkişafı məqsədilə çoxşaxəli tədbirlər həyata keçirilməkdədir.




## "Elektron Hökumət"in əhəmiyyəti və fəaliyyət prinsipləri

Azərbaycan Respublikasının mövcud qanunvericiliyin tələblərinə riayət edilməsi, informasiyalaşdırma sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dövlət və milli maraqların qorunması, istifadəçilərə təqdim olunan məlumatların tamlığının, həqiqiliyinin, aktuallığının, təhlükəsizliyinin, mühafizəsinin sadə və operativ şəkildə əldə edilməsi imkanlarının təmin olunması, dövlət qurumları arasında səlahiyyət və məsuliyyət bölgüsüdür.

"Elektron Hökumət"in əhəmiyyəti dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadə imkanlarının sadələşdirilməsidir. Habelə, dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi, istifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsi, elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsi, istifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxtın maksimum azaldılması, istifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadənin mümkünlüyü prioritet məsələdir.

"Elektron Hökumət" virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir.

## Elektron hökumətin cəmiyyət üçün faydaları

Günün istənilən saatında portala daxil olan fiziki və ya hüquqi şəxs, eyni zamanda vətəndaşlığı olmayan şəxslər müvafiq dövlət qurumlarının bazasında ona lazım olan sorğuları apara bilir, lazımi sənəd barədə sifariş verə bilir, məsləhət ala bilir və əməliyyatlar aparır. Təbii ki bunun üçün istifadəçi qeydiyyatdan keçməli və portalın tam həcmli istifadəsi üçün "Elektron imza" ya sahib olmalıdır.

Bu xidmət informasiya texnologiyalarından istifadə etməklə dövlət orqanları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə və eləcə də xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsi kimi üstünlüklər verir. İstifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq, təqdim olunan elektron xidmətlərdən ölkənin bütün ərazisində istifadənin mümkünlüyü də bu xidmətin təqdim etdiyi üstünlüklərdən bəziləridir.

Eyni zamanda, e-hökumət kriminal hadisələrin də qarşısını alacaq və kriminal əməllər törədən şəxslərin fəaliyyətini məhdudlaşdıracaq. Elektron Məhkəmənin verəcəyi axtarış əmri ilə cinayətkarın yeri tez bir zamanda təyin olunacaq. Biometrik məlumatların e-hökumətin verilənlər bazasına yerləşdirilməsi bizi sadəcə cinayətkar axtarışında yox, həm də naməlum insan meyidinin tapılmasından və itkin düşmələrdən xilas edə bilər.

Vətəndaşlar üçün istifadəyə verilən xidmətlərə misal olaraq gəlir vergisi, iş axtarışı (müəssisələrdə vakansiyalar), sənədlərin verilməsi (pasport və sürücülük vəsiqəsi), vətəndaşların qeydiyyat aktları (doğum, ölüm, nikah), avtomobillərin qeydiyyatı, sığortası, onlayn ərizə (ali məktəbə daxil olmaq, tikinti aparmağa razılıq almaq, pensiya, müavinət və s. haqqında), yaşayış yerində qeydiyyat, səhiyyə xidmətləri ( e-məsləhət) və s. göstərmək olar.

Bu sistemin biznes sektoru üçün də əsas üstünlükləri var. İş adamlarının dövlət orqanları ilə səmərəli və operativ şəkildə əlaqələrin qurulması və xərclərin azaldılması, iqtisadi səmərəliliyin, rəqabət və xarici bazarlara çıxış imkanlarının artması- əldə olunan imkanlardan bəzileridir. Bu sektor üçün göstərilən xidmətlərə misal olaraq sosial fondlara ödəmə, e-bəyannamə, e-vergi hesab-fakturası, yeni şirkətlərin qeydiyyatı və gömrük bəyannamələri, e-lisenziya, e-satınalma, e-kotirovka, e-hərrac, arayışların verilməsi və s. göstərmək olar.

## Dövlətin və cəmiyyətin idarə olunmasında rolu

Günbəgün modernləşən informasiya texnologiyaları gələcəkdə e-hökumətin əhatə dairəsini kifayət qədər genişləndirə bilər. Son zamanlarda ölkəmizdə tətbiqinə başlanmş elektron təhsil, elektron maliyyə və mühasibatlıq sistemi, elektron sənəd dövriyyəsi, elektron HRM - Kadrların İdarəolunması sistemi kimi iri lahiyələr gələcəkdə müxtəlif istiqamətlər üzrə şaxələnərək bir-biri ilə əlaqəli şəkildə daha əlverişli, asan bir sistem kimi fəaliyyət göstərə biləcək.

Tibb, hüquq, sığorta, maliyyə, turizm, idman, ticarət və digər sahələrdə həyata keçirilən əməliyyat və prosedurlar elektronlaşaraq e-hökumətin ayrılmaz parçası halına gələ bilər.

Azərbaycanda İKT-nin sürətli inkişafı e-hökumət adlı reallığı ortaya çıxardı. E-hökumətin tam bərqərar olunması təbii ki, qısamüddətli iş deyil. Bu, informasiya cəmiyyətinin formalaşması prosesinin bir təzahürüdür. Bu proses getdikcə daha geniş spektrdə bərqərar olur, yeni texnologiyalar ortaya çıxır, informasiya resurslarının sayı da, həcmi də artır. Artıq dövlətin, cəmiyyətin idarə olunması onlayn müstəviyə keçir. Bu isə demokratik və effektiv idarəetməni, hüquqi prosedurların daha tez və optimal həllini, son nəticədə vətəndaşların rahatlığını təmin edir.

**Lalə Mehralı**

# ”Yaşıl dünya naminə həmrəylik ili” ekoloji mühitin sağlamlaşdırılmasına töhfə verəcək”

“Son illər ölkəmizdə ekoloji mühitin qorunması və ətraf mühitə dəyən zərərlərin azaldılması, ekoloji layihələrin icrası istiqamətində ardıcıl işlər görülməkdədir, ağacəkmə kampaniyaları geniş vüsət alıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondunun, IDEA təşkilatının təşəbbüsü ilə Bakıda və ölkənin müxtəlif bölgələrində ağacəkmə aksiyaları həyata keçirilir. Dövlət başçısının təşəbbüskarlığı sayəsində cəmiyyətimizdə ekoloji tarazlığın qorunması işinə həssaslıqla yanaşır”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Onun sözlərinə görə, Azərbaycan qlobal iqlim dəyişmələrinin aradan qaldırılması istiqamətində də mühüm işlər görür, 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub: ”Ölkəmiz 2024-cü ildə İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına-COP29-a ev sahibliyi edəcək. Bütün bu tədbirlərin davamı kimi Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə ”Yaşıl dünya naminə həmrəylik İli” elan edilməsi ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həmrəyliyin gücləndirilməsinə töhfə verəcək qərar hesab oluna bilər”.Millət vəkili qeyd edib ki, ölkəmizdə ”Yaşıl dünya naminə həmrəylik İli” elan edilməsi çərçivəsində çoxsahəli addımların atılacağı nəzərdə tutulur: ”Ətraf mühitin qorunması, meşə zolaqlarının və su



ehtiyatlarının mühafizəsi, yaşıllıqların artırılması naminə təşəbbüslərin dəstəklənməsi, yeni layihələrin icrası sürətlənəcək. Bu kontekstdə ölkəmizdə yaşıl iqtisadiyyat quruculuğu sahəsində də yeni prioritetlər müəyyən ediləcək, xarici investorlarla birgə layihələrin icrası artacaq. Artıq Səudiyyə Ərəbistanı və BƏƏ ilə bu sahədə ilk sərmayə layihələrinə strat verib. BƏƏ-nin nüfuzlu ”Masdar” şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti arasında külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma sənədinin imzalanması ortamüddətli dövrdə regional enerji layihələrinin həyata keçirilməsinə və Azərbaycanın Şərqə enerji ixracına başlamasına səbəb olacaq. Eləcə də, 2022-ci il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair Saziş imzalanıb və bu ixrac marşrutu və ”Masdar”ın Azərbaycanla artan əməkdaşlığı ölkəmizin yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevrilməsini təmin edəcəkdir”.Deputat bildirib ki, azad edilmiş ərazilərin ekoloji mühiti yaşıl enerji üçün güclü potensiallardan xəbər verir: ”Bu bölgədə Yaşıl Enerji Zonasının yaradılması çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrindən səmərəli istifadə və ağıllı enerji idarəetmə texnologiyalarının tətbiqi nəzərdə tutulur. Xarici şirkətlərin azad ərazilərdə bərpa olunan və yaşıl enerji mənbələrinə də marağı böyükdür. Qarabağın və Şərqi Zəngəzurun yaşıl enerji zonasına çevrilməsi ilə bağlı genişmiqyaslı bərpa və yenidənqurma prosesi start götürüb”.

*Ləman Sərraf*

ŞƏRH+AKTUAL

# Erməni diasporu sülhə qarşı

## *Qərbin sifarişi..?*



**Ermənistanda qisasçılıq hissi ilə alışıb-yanan revanşçı qüvvələr imzalanması gözlənilən sülh müqaviləsinə qarşı çıxmağa başlayıblar. Belə ki, onlar sülh müqaviləsinin imzalanmasından sonra bir daha Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının irəli sürülə bilinməyəcəyini yaxşı anlayırlar.**

### Bu məsələdə xarici ölkələrdə fəaliyyət göstərən erməni diasporu da əlindən gələni edir

Məhz bu baxımdan, bir sıra siyasi qüvvələr nəyin bahasına olursa-olsun, sülh müqaviləsinin bağlanmasının əleyhinədir.

Onu da qeyd edək ki, bu məsələdə xarici ölkələrdə fəaliyyət göstərən erməni diasporu da əlindən gələni edir. Daha dəqiq desək, Qərbin bəlli qurumları üçün yem olan erməni diasporu sülh müqaviləsinin imzalamasına qarşı tərtib olunmuş yeni planı icra etməyə başlayıb.

Beləliklə, Ermənistanın hərbi-siyasi cəhətdən əldən düşdüyü bir vaxtda sülh müqaviləsi imzalamağın onlar üçün ciddi təhlükə yarada biləcəyini düşünənlər hesab edirlər ki, bu vəziyyətdə bağlanacaq sülh sazişi qalib Azərbaycanın diktəsi altında imzalanacaq və bu fakt Ermənistanın növbəti, həm də daha acınacaqlı kapitulyasiya aktı olacaq. Eyni zamanda, ehtimallar var ki, Ermənistanın baş naziri Nikol Paşinyanı da siyasi alverə təhrik edənlər diaspordakı erməni icmalarının üzvləridir.

### Erməni daşnak yazıçısı Karen Xurşudyan: ”İrəvanla Bakı arasında real sülh müqaviləsinə nail olmağın yeganə yolu Ermənistanın hərbi cəhətdən güclənməsidir”




Xüsusilə, Fransadakı erməni icması birmənalı şəkildə sülh müqaviləsinə qarşı bəyanatlar səsləndirirlər. Nəzərə alsaq ki, son günlərdə Fransanın Azərbaycana qarşı qeyri-ciddi fəaliyyəti də mövcuddur, bu zaman qənaətə gəlmək olar ki, onlar Makron planının icraçılarıdırlar.

Digər tərəfdən, Marseldəki Abovyan kollecinin rəhbəri, daşnakçı yazıçı Karen Xurşudyan sülh müqaviləsinə qarşı çıxdığını belə ifadə edib: ”İrəvanla Bakı arasında real sülh müqaviləsinə nail olmağın yeganə yolu Ermənistanın hərbi cəhətdən güclənməsidir”.

Məhz bu cür təhlükəli fikirlər səsləndirən ermənilərin məqsədi aydındır - heç bir avropalı Ermənistanın sərhədlərini tam müdafiə etməyə gəlməyəcək, heç bir avropalı Azərbaycanı Haaqa Məhkəməsinin qərarını yerinə yetirməyə məcbur etməyəcək. Əsl sülh müqaviləsi ancaq hərbi paritet şəraitində imzalana bilər...

### Revanşçı erməni: ”Bu yolda xarici oyunçularla ümumi maraqların yaradılması vacibdir”

Xurşudyanın sözlərinə görə, Fransa Ermənistanın hərbi baxımdan gücləndirilməsinin vacibliyini çox yaxşı anlayır. ”Ermənistan öz xarici siyasət əlaqələrini şaxələndirməyi bacarmalıdır, özü üçün lazımi fayda əldə etməlidir. Bu yolda xarici oyunçularla ümumi maraqların yaradılması vacibdir. Əks halda başqaları həmişə İrəvandan öz məqsədləri üçün istifadə edəcək”, - deyə daşnakçı yazıçı Xurşudyan deyib.

Nəticə isə belədir ki, revanşçı qüvvələr bu vasitələrlə, əslində, Azərbaycana qarşı deyil, Ermənistana qarşı mövqe sərgiləyirlər. Əgər belə davam edərsə, bu siyasət Ermənistanın sonu ola bilər. Çünki ortada tarixi Qərbi Azərbaycan faktoru da var. Onlar bu reallığı qətiyyən unutmamalıdırlar.

*Afət Tahirqızı*



# Dünya ölkələri Yeni ili necə qeyd edirlər?

**Dünyanın müxtəlif xalqlarının ənənəvi bayrama çevrilən Yeni il Azərbaycanda da insanların məişətinə daxil olub. Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. Tarixi mənbələrdə qeyd olunduğu kimi, ilin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim+ Mesopotamiyada yaranıb. Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi bu günümüzə qədər gəlib çatan mədəni irsiylə hələ də bizi heyrətləndirən mədəniyyət mərkəzləri burada təşəkkül tapıb. Tarixçi alimlərin fikrincə, məhz həmin dövrdə burada Yeni ilin gəlişi ilk dəfə bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş.**







Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya, Amerikaya yolkanı burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir. Beləcə şam ağacı bütün dünyada məşhurlaşıb.

## HƏYATIN ÖLÜM ÜZƏRİNDƏ QƏLƏBƏSİNİN RƏMZİ

Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Və məlum oldu ki, İsa peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə, bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu. Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağacsız təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu şam ağacı təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa, daha gözəl olardı. Amma təbiəti qorumaq xatirinə süni şam ağacları ilə də keçirmək olar. Bəs Yeni il bayramında yolka bəzəməyin mənası nədir? Çoxları şam ağacları bəzəmək ənənəsini də xristian dini ilə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan şam ağacının bəzənməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hansısa bir dinlə bağlı deyil. Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə əkin allahının şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya, Amerikaya yolkanı, burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ Evin qarşısında bu mərasim keçirilir. Beləcə, şam ağacı bütün dünyada məşhurlaşıb.

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə, xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də, bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır. Fransada Şaxta Baba Per Noel - yəni Noel ata adlanır. O, Yeni il gecəsi gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə, bayram günü daha çox yeyib-içməyi sevirlər. Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək olar. Bu ölkədə bayramın ən maraqlı tərəfi hədiyyələrdir. Amma burada bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa kimdənsə hədiyyə olaraq, ətir qəbul etməsi yaxşı hal hesab olunmur.

## İTALİYADA UŞAQLARIN ŞAXTA BABALARI YOX, ŞAXTA NƏNƏLƏRİ VAR

Yeni ildə İsveçrədə insanlar bir-birinə şam hədiyyə edirlər ki, bu da, dostluğun və sevincin rəmzidir. Bayram axşamı isə ailə başçısı - ata zibil atmaq bəhanəsilə evdən çıxır və Yul Tomten (Şaxta Baba) obrazında qayıdır və uşaqlara hədiyyələr paylayır. İtaliyada yeni ildə uşaqların isə Şaxta Babaları yox, Şaxta nənələri var. Onun adı Befan Nənədir. Bu ölkədə Yeni ili bərkdən qışqıraraq qarşılamaq adəti var. Ucadan danışmaq italyanlar üçün adi hal olsa da, Yeni il gecəsi onlar öz səslərinə tam sərbəstlik verirlər. Beləcə, onlar həm də köhnə illə vidalaşırlar. Əgər Yeni il bayramı ərəfəsində təsadüfən Roma küçələrindən keçsəniz, ehtiyatlı olun. Çünki pəncərələrdən atılan köhnə ev əşyalarına hədəf ola bilərsiniz. İtalyanlar hesab edirlər ki, Yeni ilin astanasında, bütün pis fikirlərdən və köhnə əşyalardan xilas olmaq lazımdır.

Böyük Britaniyada bayram günü evdə ideal təmizlik və qanun-qayda hökm sürməlidir. Gecə düşərkən, ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapı bağlanır və evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə, ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisə, çatmaqaş adamın içəri girməsinə qarşı isə, o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, Yeni ildə ailə ocağı daha gur yansın.

## AVSTRİYADA YENİ İL BAYRAMININ XEYİRXAH OBRAZLARI BACATƏMİZLƏYƏN VƏ DONUZDUR

Yeni ildə İslandiyada kiçiklər öz valideynlərini xeyli təəccübləndirirlər. Bu balaca çoxbilmişlər Şaxta Babanın onlara göz qoymasından ehtiyatlanaraq, ay boyu özlərini yaxşı aparır, dəcəllik etmirlər. Əks halda bayram gecəsi sobanın yanına qoyduqları çəkmələrin içində kartof və ya bir parça kömür tapa bilərlər. Almanlar Yeni il gecəsi saat 12-ni vurarkən, ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr, yeni il daha bərəkətli olacaq.İspaniyada bayram günü hamı şəhərin mərkəzi meydanına axışır. Üzüm yeməyə. Həm də kütləvi şəkildə. Hər kəs müəyyən vaxt ərzində 12 salxım üzüm yeməlidir. Bayram axşamı küçələrdə müxtəlif tələlər qurulur. Bu, onun üçündür ki, pis qüvvələr köhnə ildə ilişib qalsın. Avstriyada hələ qədimlərdən Yeni il bayramının xeyirxah obrazları bacatəmizləyən və donuzdur. Bu, əlbəttə, sonuncunun bayram süfrəsində həzm-rabedən keçirilməsinə mane olmur. Yeni il Avstriyada çox şən keçir, insanlar yeni il gecəsini küçələrdə şənlənməklə və karnavallarla keçirirlər. Yeni il Rusiyada ən çox sevilən bayramdır. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər isə səadət və xoşbəxtlik gözləyir. Bu ənənənin əsası 300 il bundan əvvəl, Birinci Pyotrun əmri ilə qoyulub. Əmrdə, həmçinin, ağac bəzəmək də öz əksini tapıb. Məhz küknar ağacı 19-cu əsrin axırlarında dəbə minib.

## BRAZİLİYADA YENİ İL TOPLARDAN ATILAN ATƏŞLƏRLƏ QARŞILANIR

Yeni il gecəsi süfrəyə mütləq müxtəlif yeməklər - salatlar, içkilər, piroqlar qoyulur. İnanca görə, süfrə nə qədər dolu və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Süfrənin ortasına mütləq odda qızardılmış donuz balası qoyulur. Çünki donuz ruslarda bolluq və var-dövlət simvolu kimi tanınır. Süfrəyə quş ətindən heç nə qoyulmur, hesab edilir ki, evdən xoşbəxtlik uça bilər. Xəmirdən müxtəlif heyvan fiqurları bişirilib, gələn qonaqlara paylanır. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar və ayaqqabı almaq imkanı olsun. Yeni il qabağı hamı çalışır ki, bütün borcları qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacağı atır, pəncərə və güzgülər parıldayana qədər silinir. Müxtəlif karnavallar, ballar təşkil olunur, hamı səhərə kimi rəqs edir.

Yeni il dünyanın müxtəlif qitələrində qeyd olunur. Məsələn, Braziliyada Yeni il toplardan atılan atəşlərlə qarşılanır. Atəş səsi eşidəndə, hamı bir-birini qucaqlayıb öpməyə başlayır. İnanırlar ki, həmin an sənə əziz olan birini öpməyə imkan tapsan, il xoşbəxtlik içində keçəcək. Yaponiyada isə bayram günü Budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da, gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

## ÇİNLİLƏR YENİ İLİN GƏLİŞİNƏ MANE OLAN ŞƏR QÜVVƏLƏRİ QOVURLAR

Çində də bayram günü böyük səs-küy və atəşfəşanlıqla keçir. Bununla, çinlilər Yeni ilin gəlişinə mane olan şər qüvvələri qovduqlarını düşünürlər. Ən qəribə bayram hədiyyələrini isə eskimoslar bir-birinə bağışlayırlar. Bu, morjların və ağ ayıların buzdan yonulmuş fiqurlarıdır. Qrenlandiyadakı hava şəraiti bu hədiyyələri uzun müddət saxlamağa imkan verir.

Hər bir ölkə özünəməxsus ab-hava ilə yeni ili qarşılayır. Hər yeni il gələcəyə açılan yoldur. Bayram özü ilə yeni arzular, yeni ümidlər gətirir. Qoy 2024-ci il hər bir insanın həyatında ən uğurlu illərdən biri olsun. Bütün insanları, xüsusilə də, dünya azərbaycanlılarını bayram münasibəti ilə təbrik edir, səmamızın açıq, ölkəmizin ruzili-bərəkətli, əmin-amanlıq şəraitdə olmasını arzulayırıq. Yeni iliniz mübarək!

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Azərbaycan gənci ilk növbədə vətənpərvər olmalıdır”

MÜNASİBƏT

**“Azərbaycan təhsilinin qarşısında duran başlıca vəzifələrdən biri, bəlkə də, birincisi sağlam vətəndaş yetişdirmək missiyasıdır”. Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov deyib.**





O, sözlərinə davam edərək deyib: ”Məktəb təhsilin bütün pillələrində bu missiyanı davam və inkişaf etdirməlidir. Bu istiqamətdə məktəblər, təhsil müəssisələri fəaliyyətlərini qurmalıdır. Mən hesab edirəm ki, həm də qururlar. Azərbaycan təhsilinin çox böyük uğurları var. Biz torpaqlarımızı işğaldan azad etmişiksə, ərazilərimizin suverenliyini bərpa etmişiksə, bunu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusu və ordunun əsgər, zabitləri hesabına etmişik. Əsgər və zabitlər kimlərdir? Azərbaycan məktəblərinin yetirmələridir. Zamanında ulu öndər qeyd edirdi ki, Azərbaycan gənci ilk növbədə vətənpərvər olmalıdır. Vətənpərvərlik ruhunun formalaşdırılması dövlətin qarşısında duran bir nömrəli vəzifələrdən biridir. Sağlam, vətənpərvər vətəndaş yoxdursa, dövlətin gələcəyini etibar edəcəyi insanlar yoxdur. Ona görə, vətənpərvərlik həm də dövlət ideologiyasında qırmızı xətlə keçməlidir. Bu, bizim dövlətimiz üçün, müstəqilliyinin tarixi böyük olmayan ölkələr üçün qabarıq görünür. Məktəblər bu istiqamətdə mütləq işlər görməlidirlər”.

İ.Orucovun sözlərinə görə, vətənpərvərlik hissini aşılamağın bir neçə yolu var: ”Həm təhsilin bir hissəsi olaraq müəllimlər şəxsi nümunələr əsasında vətənpərvərlik hissini aşılamalıdırlar. Bunu dərsliklərin məzmunu çərçivəsində etməlidirlər. Həm də valideynlər vətənpərvərliyi aşılamalıdırlar. Biz övladlarımızı nə qədər milli dəyərlər ruhunda böyütsək, dövlətimizin də gələcəyindən, milli genefondumuzun gələcəkdə hansı yerdə olacağından da arxayın ola bilərik. Bütün mənada Azərbaycan dövlətinin gələcəyini təmin etmiş olarıq. Vətənpərvərliyi böyüklər davranışlarında göstərməlidirlər, çünki uşaqlar böyüklərdən öyrənir. Siz bu gün övladınıza nəyi tərbiyə etsəniz, sabah övladınız onu sizə, cəmiyyətə qaytaracaq. Ona görə də, ailələrdən, məktəblərdən başlayaraq böyüklərin bu işdə nümunə olmasını birinci şərt hesab edirəm. İkincisi, dərsliklərin məzmununda bu məsələ kifayət qədər qabarıq özünü ifadə etməlidir. Biz şagirdlərə, uşaqlara tariximizi sevdirməliyik, öyrətməliyik. Dilimizi sevdirməliyik, milli dəyərlərə məhəbbəti formalaşdırmalıyıq. Məktəb bu məsələdə çox böyük rol oynayır. Böyük Azərbaycan məktəbi həm də ona görə önəmlidir ki, onun yetişdirdiyi uşaqlar əsgər, zabit olub Ali Baş Komandanın çağırışı əsasında, dəmir yumruq ətrafında birləşərək vətən torpaqlarını azad etdilər. Bu işdə kütləvi informasiya vasitələri üzərlərinə düşən yükün məsuliyyətini yaxşı hiss etməlidirlər. Qlobal məkanda güclü təsirlər var ki, cəmiyyətlərə sirayət edir. Zərərli təsirlərin qarşısını almaq üçün kütləvi informasiya vasitələri davamlı işləməlidirlər. Televiziyalar qapını döymədən evlərə daxil olur. Televiziya ideoloji xətti unutmamalıdır. Vətəndaş cəmiyyəti bu məsələdə kifayət qədər aktivdir. Davamlı olaraq insanlar üzərlərinə düşən məsuliyyəti dərk etməlidirlər. Funksional davranışları ilə hər zaman çalışmalıdırlar və işlər görməlidirlər”.

***Söylü Ağazadə***

# İmtahan stressindən necə qurtulaq?

## *PSİXOLOQ DANIŞDI*

“Təbii haldır ki, həyatımızın müəyyən dönəmlərində çətinliklərlə üzləşib neqativ hadisə olacağını düşünərək stress keçiririk. Bu periodlardan biri də imtahan dönəmidir. Hansı ki, müxtəlif yaşlarda imtahanlar veririk və bəzən çox uzun illər imtahan verməyə davam edirik. Hansı səbəbdən olmağından asılı olmayaraq uzunmüddətli stress fiziki və zehni sağlamlıqla bağlı problemlərin yaranmasına səbəb ola, öyrənmə və davranışa mənfi təsir göstərə bilir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gövhər Məmmədova deyib.



Onun sözlərinə görə, imtahanöncəsi insanlar imtahan və imtahandan sonrakı dövrü düşünərək təşvişə qapılırlar, yəni imtahanda bildiklərini unuda biləcəklərini, heçnə yaza bilməyəcəklərini, vaxtı düzgün idarə edə bilməyəcəklərini yaxud imtahan bitdikdən sonra necə olacağını, insanlar soruşduqda nə cavab verəcəyini və s. düşünərək stress üçün yetəri qədər münasib zəmin yaradır: ”Bəs necə etməliyik ki, bu hallar yaşanmasın? İmtahan stresini azaltmağın yollarından biri, imtahanın bitməsindən 1 saat keçdiyini təsəvvür etməkdir, sanki imtahan uğurlu keçib və belə olduqda siz hardasınız? Yanınızda kim var? Nə hiss edirsiz? Bu sualları düşünüb xəyal etmək müəyyən qədər təşvişinizi azaldacaqdır. Daha sonra isə nəfəs hərəkətləri edə bilərsiniz, artıq düşüncələr sizi boğmağa başladıqda nəfəs texnikasından istifadə edərək, diafraqma ilə nəfəs alaraq rahatlaya bilərsiniz. Əlavə olaraq deyə bilərəm ki, ən effektiv üsullardan biri özünü psixoloq kimi yoxlamaqdır. Yəni əgər başqa biri sizinlə danışmaq istəyib imtahana görə stress keçirdiyini, qorxduğunu, narahat olduğunu deyərsə, nə edərdin, hansı məsləhəti verərdin? Bunu düşünmək özünü kənardan necə göründüyünü anlamağa, öz daxili sakitliyini qorumağa kömək edəcəkdir. Əgər streslə baş etmək artıq sizə əziyyət verirsə professional dəstək ala bilərsiniz”.



**Elçin Bayramlı**

# Televiziyalarda korlanan ana dilimiz

**Televiziya bütün dövrlərdə ən güclü təbliğat vasitəsi hesab olunub. Ədəbi dilin formalaşmasında TV-lərin rolu böyükdür. Bütün ölkələrdə olduğu kimi, Azərbaycan ədəbi dilinin formalaşmasında, xalq tərəfindən öyrənilməsində də televiziyanın böyük rolu olub. Lakin, bu gün AzTV istisna olmaqla televiziyaların demək olar ki, hamısında dil problemi mövcuddur. İctimai TV-də belə qüsurlara nadir hallarda rast gəlinir, lakin özəl kanallarda belə halların sayı-hesabı yoxdur.Aparıcılar ədəbi dili kənara qoyub, jarqonlar, əcnəbi sözlərlə, ara kəlmələri ilə danışırlar.**

Üzeyir Hacıbəyov ”Yeni üsuli-təbii haqqında bir neçə söz” adlı məqaləsində (Tərəqqi qəzetinin 1909-cu il mart tarixli nömrəsində) yazırdı: ”Biz müəllimlər öz dilimizi bilmirik və bilmədiyimiz üçün bədbəxt dilimizi xarab edirik. Yüzlərlə müəllim ana dilinin qaydalarından heç nə bilmir”. Məqalənin yazılmasından 1 əsrdən çox keçsə də, orada qeyd olunan fikirlər öz aktuallığını bu gün də saxlamaqdadır. Dilimizi ən çox internet mediası korlasa da, bunu televiziyalara da aid etmək olar. Müasir dövrdə televiziya və radio kanallarnın dili olduqca çox müzakirə edilən məsələdir. Bu həmin sahədə çalışan əməkdaşların bəzilərinin konkret olaraq savadsızlığından, digər qisminin isə xarici dillərə meylindən irəli gəlir.

Bir çox televiziya və radio kanallarında aparıcılar verilişlərə dəvət etdikləri qonaqlarla xarici dilə aid sözlərlə danışırlar. Onların danışıqlarının bir hissəsi türkcə, bir hissəsi rusca, bir hissəsi ingiliscə ifadələr əsasında qurulur. Yaşlı nəsil artıq gənclərin danışığından bir şey başa düşə bilmir. Cəlil Məmmədquluzadənin ”Anamın kitabı” əsəri məcburi şəkildə bütün jurnalistlərə oxudulmalıdır.

Sözlərin ”qol-qabırğasını” sındıra-sındıra, hər sözə bir şəkilçi artırmaq və ya azaltmaqla danışmağı kimlərsə dəb salır. Qeyri-səlis tələffüz və diksiya problemi olan aparıcı televiziyanın imicinə güclü ziyan vurur, amma nədənsə bunu telekanal rəhbərliyi görmür, ya da... Efirdə belə bir aparıcını görən tamaşaçı isə bunu özünə qarşı təhqir hesab edir, telekanalı daha az izləyir.

Kommersiya telekanalların aparıcılarına baxanda aydınca görünür ki, intellektual bazaya, normal söz ehtiyatına və ana dilində savadlı danışıq qabiliyyətinə malik deyillər. Bunu söz bazasının zənginliyi barədə də demək olar. Məsələn, Rusiyada TV və mətbuatda 200 mindən çox söz istifadə olunduğu halda, Azərbaycanda mediada istifadə olunan sözlərin sayı 50 mindən artıq deyil. Son vaxtlar isə əksər aparıcı və jurnalistlər cəmi bir neçə min sözlə danışır və yazırlar ki, bu da dilimizin imkanlarına müvafiq deyil. Bəzi aparıcılar robotu xatırladır. Standart sözlər və ifadələr, şablon cümlələr, məişət danışıq stili

Elə aparıcılar var ki, diksiyası yerindədir, amma danışan kimi hiss edilir ki, onun savad və dünyagörüşü çox azdır, həyat təcrübəsi yoxdur. Aparıcıların yaş faktoru da oldüqca vacibdir. Bizim xəbər aparıcılarına baxın, çoxu 20-25 yaşlı gənclərdir. Həyat təcrübəsi az olan, savadı və söz bazası zəif olan birinin TV-dən xalqa məsləhət verməsi də bir başqa problemdir.

Televiziya və radiolardakı bu problemə nəzarət edilmədiyindən, cəza tədbiri görülmədiyindən vəziyyət yaxşılaşmaq əvəzinə pisləşir. Üstəlik, televiziya və radioların ucuz işçi qüvvəsi olaraq diletantları cəlb etməsi, peşəkarların kənarda qalmasına səbəb olur və nəticədə bu özünü efirdə aydın göstərir.

Bu məsələ çox vacibdir, biz ana dilimizi qorumasaq, tezliklə dilimiz tamam dəyişəcək, nəsillər arası əlaqə qırılacaq, yeni nəsillər köhnə nəsillərlə bir-birini başa düşməyəcək, yenilər köhnə ədəbiyyatı oxuyanda, köhnə filmlərimizə baxanda çoxunu başa düşməyəcək. Min illərdir qoruyub bu günədək gətirib çıxardığımız milli sərvətimizi indi itirməli deyilik.

Ana dilinin qorunması haqda xüsusi qanun qəbul olunmalı, mediada ana dilinin qaydalarına uyğun olmayan, dilimizin rəsmi lüğətindən kənar sözlər işlətməyə görə ən azı qınaq tətbiq olunmalıdır. Dəfələrlə qəsdən təkrarlanan hallarda isə cərimələr tətbiq etmək olar.

Hansı yolla olur-olsun, ana dilimizin qorunması dövlət səviyyəsində təmin olunmalıdır. Çünki dil əsas milli-mənəvi sərvətlərdən biridir. Dövlətin də əsas borclarından biri milli-mənəvi sərvətləri qorumaqdır.

# "Bir millət, iki dövlət" birlik və qardaşlığının növbəti təzahürü!

## İLHAM ƏLİYEV: "Hərbi təlimlər Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür"



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, ölkəmizdə mütəmadi olaraq hərbi təlimlər keçirilir. Təlimlərin keçirilməsində əsas məqsəd döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir.Növbəti hərbi təlimlər dekabrın 26- 28-dək keçirilib. Türkiyə Milli Müdafiə Nazirliyinin sözçüsü Zeki Aktürk həftəlik brifinqdə çıxışı zamanı bildirib: "26-28 dekabr tarixləri arasında Azərbaycanda "Hibrid Təhdidlərə Cavab Təlimi" keçirilib". "Regional və qlobal sülhə dəstək çərçivəsində "İki dövlət, bir millət" anlayışı ilə bərabər olduğumuz Azərbaycana dəstəyimiz davam etməkdədir", - Z.Aktürk əlavə edib.

BU, Azərbaycan-Türkiyə arasında dünyada analoqu olmayan və sərhəd tanımayan qardaşlığın, ulu öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir. Bu gün hər iki dövlət yaxşı gündə də, pis gündə də bir-birinin yanındadır, hər iki dövlət eyni yolu yaşayır.

Türkiyə, Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasına da hər zaman dəstək göstərib. Türkiyə Azərbaycanda kadrların hazırlanmasında və hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb. Daim iki ölkə arasında hərbi-texniki əməkdaşlıq yüksələn xətlə inkişaf edib. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər. Prezident İlham Əliyev birgə təlimləri yüksək qiymətləndirərək bildirib ki, hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün də təlimlərin rolu danılmazdır. "Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlim keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bəzi təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür".

Son illər baş verən hadisələr bir daha təsdiqlədi ki, iki qardaş ölkə arasındakı qırılmaz əlaqələr daha möhkəm və sarsılmazdır. Bu gün hər iki xalqın nümayəndələri müdrik siyasi xadim Heydər Əliyevin bu sözlərinə sadiqlik nümayiş etdirdilər. Bütün dünyaya bir daha məlum oldu ki, bu tarixi ifadə sadəcə olaraq sözdən ibarət deyildir. Bu tarixi kəlam iki dost və qardaş ölkənin yolunu daha da işıqlandırıb, bütün sahələr üzrə, o cümlədən ordu sahəsində inkişafı yeni mərhələyə çatdırıb. Azərbaycan Prezidenti İlham Əliyev cənabları Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata bəyanatlarında da hərbi və müdafiə sənayesi sahəsində Azərbaycan-Türkiyə münasibətlərinin uğurla davam etdiyini, Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsinin təsadüfi olmadığını vurğulayaraq bildirib ki, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük".

### 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ TÜRKİYƏNİN ORDU MODELİ ÖZÜNÜN UĞURUNU BİR DAHA SÜBUT ETDİ

44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu gün Azərbaycanın çox güclü ordusu var və hər bir vətəndaş ordumuzla qürur duyur. 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, səmərəli nəticələr əldə olunur. Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır. Və bu gün Azərbaycan və Türkiyə dövlətlərinin ordu rəhbərliyi arasında keçirilən yüksək səviyyəli görüşlər, iki ordunun hərbi qulluqçularının iştirakı ilə təşkil olunan təlimlər nəticəsində Azərbaycan Ordusunun güclənməsi və müasir tələblər çərçivəsində qurulmasına yönəlik mühüm işlərə imza atılır. Bir sözlə, önəmli olan odur ki, tarixi köklərə söykənən və fundamenti qarşılıqlı etimad prinsipi üzərində qurulan əməkdaşlıq və tərəfdaşlıq bu gün ən yüksək dövrünü yaşayır.

Yüksək beynəlxalq tribunalardan öz sözünü deyən, milli mənafeyini qoruyan, böyük iqtisadi potensiala malik ölkəmiz İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoyaraq əldə etdiyi Qələbə ilə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Qürurverici haldır ki, bu gün Azərbaycan ilə Türkiyə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib. Ölkələrimiz milli maraqlara uyğun beynəlxalq əhəmiyyətli böyükhəcmli layihələrin reallaşmasına birgə səy göstərir. Hərbi sahədə də müttəfiq olan iki qardaş ölkə 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqaviləyə əsasən müstəqilliyin qorunması, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı istiqamətində bir-biri ilə sıx əməkdaşlıq edirlər. Müqavilənin ikinci maddəsində ölkələrdən hər hansı biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldığı halda, öz imkanları daxilində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri nəzərdə tutulur. Müqavilədə həmçinin, hər iki dövlətin səylərini birləşdirməsi, müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq perspektivləri öz əksini tapıb. Bu baxımdan, Cənubi Qafqaz regionunda söz sahibi olan Azərbaycan qardaş Türkiyə ilə birgə beynəlxalq sülhə, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir, sülhü təhdid edən çağırışlara qarşı səylərini birləşdirirlər. Bütün bunların fonunda bir-birinə qarşılıqlı yardım göstərmək, Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilir.

### HƏRBİ TƏLİMLƏR TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİNİN, QARDAŞLIĞININ NÖVBƏTİ TƏZAHÜRÜDÜR

İki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də birgə hərbi təlimlərin keçirilməsidir. Bir sözlə, iki ölkənin münasibətləri unikal bir nümunəyə çevrilib. 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, daha bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Postmüharibə dövrünün reallıqları da bu gerçəkliyi bir daha təsdiqləyir. "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi" deyə Prezident İlham Əliyev çıxışında bildirib.

### "ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI İLƏ TÜRKİYƏ VƏ AZƏRBAYCAN RƏSMƏN MÜTTƏFİQ OLDULAR"

Bu faktı xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi şanlı tariximizin ən qürurverici səhifələrindən biridir."Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular", - deyən Azərbaycan Prezidenti tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi olduğunu qeyd edib: "Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir".Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu Bəyannamənin müddəaları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin bir çox aspektini əhatə etsə də, Hərbi Doktrinada nəzərdə tutulan xarici hərbi və siyasi təhdidlərin neytrallaşdırılmasında və ya onlara qarşı balans yaradılmasında xüsusi əhəmiyyət kəsb edir. Hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi isə təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Və bu gün müdafiə sənayesində önəmli rolu olan şəxslərdən biri də Səlcuq Bayraktardır ki, məhz onun təşəbbüsü ilə bu gün türk hərbi sənayesi dünyanın aparıcı hərbi qüvvəsi hesab olunur. Bir sözlə, dövlət başçımızın söylədiyi kimi: "Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir" bu fikirləri səsləndirən cənab Prezident İlham Əliyev bir daha Azərbaycan və Türkiyə dövlətlərinin arasına heç bir 3-cü dövlətin girə bilməyəciyini, zaman keçdikcə bu iki qardaş dövlətin daha da möhkəm bağlarla bir birinə bağlanacağını və hər iki dövlətin gələcək inkişafında qardaşlığın və birliyin çox böyük əhəmiyyəti olacağını qeyd etmişdir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirmişdir. Prezident İlham Əliyev həmişə Türkiyənin nümayəndələrinin olmadığı Beynəlxalq tədbirlərdə Türkiyə əleyhinə hər hansısa bir fikir səsləndirən olduqda onların cavabını Türkiyə burda yoxdur mən varam, Azərbaycan var deyə vermişdir. Bu mesajlar bütün dünya dövlətlərinə Azərbaycanın və Türkiyənin bir birinə necə möhkəm bağlarla bağlı olduqlarını, qardaşlığın və birliyin sözdə yox, əməldə olduğunu göstərmişdir.

### BUNDAN SONRA GÜCLƏNƏN BİR AZƏRBAYCAN, GÜCLƏNƏN BİR TÜRKİYƏ VARDIR

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın qətiyyətli və dönməz addımları bütün dünya dövlətlərinə Azərbaycanın tək olmadığını və bu mübarizədə Türkiyənin var gücü ilə öz qardaşının yanında olduğunu göstərdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır" mesajı hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir: "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır".

Bir sözlə, bu gün bütün sahələrdə, o cümlədən də hərbi və müdafiə sənayesi sahəsində Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun professional inkişafında böyük rol oynayacaq. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Bizim qardaşlığımız əbədi və sarsılmazdır! Bütün dünya bilsin ki, Azərbaycan-Türkiyə əməkdaşlığı və qardaşlığı möhkəmdir, sarsılmazdır. Çünki Azərbaycan və Türkiyə təkcə iki dövlət, bir millət deyil - qardaş dövlət, qardaş ordudur!.

***RƏFİQƏ KAMALQIZI***

# 2023-cü il radikal müxalifət üçün faciəli sonluqla bitdi



Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev 2022-ci ilin sonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa təbrik müraciətində mövcud proseslərə və aparılan siyasətə əsasın əminliklə qeyd etmişdir ki, 2023-cü il Azərbaycanın hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması uğurlu illərdən olacaq. Qazanılan nailiyyətlər təsdiq edir ki, ölkə Prezidenti İlham Əliyevin dediyi kimi, 2023-cü il dövlətimiz və xalqımızı üçün uğurlu dövr olub. Bu dövrdə qarşıya qoyulan bütün vəzifələr yerinə yetirilib, başlıcası 2023-cü il də Azərbaycan əbədi olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Artıq tam əminliklə demək olar ki, Qarabağ adlı problemimiz yoxdur, böyük və qüdrətli Azərbaycan dövləti var. 2023-cü il də Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq, abadlıq işləri davam etdi. Zəngilan və Laçın Beynəlxalq Hava Limanları istifadəyə verildi, Zəngilanın Ağalı kəndinə, Laçına, Zabuxa, Kəlbəcərə, Füzuliyə insanların qayıdışları təmin olundu və qayıdış prosesi davam etməkdədir. Söz yox ki, xalq 7 fevral 2024-cü il də keçiriləcək növbədənkənar prezident seçkilərində Qarabağı xalqa qaytaran, böyük fateh, Yenilməz Sərkərdə İlham Əliyevə səs verəcək və bununla da möhtəşəm uğurların 2024-cü il də daha geniş və dinamik şəkildə davam etdirilməsinə dəstəklərini nümayiş etdirəcəklər.

### Azad və demokratik seçkilər Azərbaycanın uğurlarına təkan olacaq

7 fevral 2024-cü il də keçiriləcək növbədənkənar prezident seçkilərinə hazırlığın yüksək səviyyədə aparılması onu deməyə əsas verir ki, Azərbaycan 7 fevralda növbəti demokratik seçki tarixi yazacaq. Bunu əhalinin fəallığı, çox sayda iddialı namizədin mövcudluğu və digər uğurlu addımlar və nəticələrdə təsdiqləyir. Sadəcə prosesə əngəl yaratmağa, yüksək seçici fəallığına zərər vermək istəyən bir ovuc dağıdıcı müxalifət var ki, onların məkrli məqsədləri nəticəsiz qalacağı şübhəsizdir. Çünki, cəmiyyət AXCP, Müsavat, Milli Şura kimi dağıdıcı xislətli qurum rəhbərlərinin pozucu məqsədləri haqqında geniş bilgilərə malikdirlər. Məlumatlıdırlar ki, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri xarici maraqlı dairələrin əlində alətdirlər, onların sifarişləri əsasında hərəkət edirlər. Yəni xarici dairələrə bağlıdırlar. Məhz bu bağlılıq nəticə etibarı ilə AXCP, Müsavat, "Milli Şura" kimi partiyaların və qurumların Azərbaycanın dövlət maraqlarına deyil, xarici dairələrin mənafeyindən çıxış etməyə məcbur edir. Söz yox ki, onların bu cür işlər mexanizm rolunda çıxış etmələri sıravilər üçün arzuolunan hal hesab edilməsə də müxalif rəhbərlər bunun fərqində deyillər. Onlar üçün başlıca hədəf və məqsəd maddi imkanlarını artırmaq və siyasət meydanında ömürlərini bir qədər də uzatmaqdır. Əgər belə olmasa idi AXCP sədri Əli Kərimli, "Milli Şura" nın rəhbəri Cəmil Həsənli, Milli Şuranın üzvü Gültəkin Hacıbəyli və digərləri vicdanlarının səsinə qulaq asıb, Qarabağ zəfərinin sevincini yaşayan xalqla eyni mövqedən çıxış edərdilər. Təəssüf ki, ictimai qınaqdan və çağırışlardan nəticə çıxarmırlar. Utanıb, çəkinmədən "Qarabağ zəfəri yarımçıqdır" deyə bildirməklə xalqın heysiyyatına toxunurlar. Hətta AXCP sədri Ə.Kərimli bir qədərdə dərinə gedərək, "44 günlük Vətən Müharibəsində əldə olunan qələbə, Koçaryan -_Sarkisyan cütlüyünün Qarabağı və ətraf rayonları işğal etməsindən artıq ola bilməz" deyə bildirir. Bu azmış kimi beynəlxalq təşkilatlara müraciətlər ünvanlayan Ə.Kərimli və C.Həsənli onlardan Azərbaycana qarşı iqtisadi sanksiyalar tətbiq olunmasını və beynəlxalq təşkilatlarda səsvermə hüququndan məhrum edilməsini tələb edirlər. Bütün bunlar erməni̇dən betər erməni olmaq deməkdir. Çünki, erməni revanşistləri, hətta ikinci Qaragen və onun kilsə tulaları Azərbaycan qarşı qanlı terror aktları törədilməsi üçün beynəlxalq terrorçu təşkilatlara müraciətlər ünvanlayırlar.

### 2024-cü il də AXCP və "Milli Şura"nın sonu olacaq

Əvvəlki illərdə olduğu kimi 2023-cü il də dağıdıcı müxalifət üçün faciəli olub. Başlıcası AXCP və Müsavatdan çoxsaylı istefalar baş verdi, bir neçə rayon təşkilatı buraxıldı. Müxalif funksionerlərarası qarşıdurma 2023-cü il də daha gərgin xarakter aldı. Əgər 2018-ci ilə qədər AXCP ilə Real arasında münasibətlər "dəymə mənə dəyməyin sənə" prinsipi əsasında cəriyan edirdisə, 2022-ci ilin əvvəlindən münasibətlər gərgin məcradadır. Bu gün də qarşıdurma davam etməkdədir. Münaqişənin səbəbi isə 2018-ci ilə gedib çıxır. Həmin vaxtlarda İ.Məmmədov həbsdə idi. Müxalifət düşərgəsində üstün hörmətə malik idi. O zaman sosial şəbəkələrdə "Əli Kərimli, yoxsa İlqar Məmmədov?" tipli reytinq sorğuları keçirildi. Nəticədə, İ.Məmmədov Ə.Kərimlidən daha çox səs topladı. Ə.Kərimli isə susmağa üstünlük verdi. Çünki İ.Məmmədovu "siyasi məhbus" kimi təqdim edərək, bir sıra xarici təşkilatlardan qrantlar alırdı. İ.Məmmədov azadlığa çıxdıqdan sonra da "Milli Şura"nın mitinqinə dəvət edildi. Lakin bütün bunlardan sonra tərəflərin arasında kəskin mübarizəyə start verildi. Yaranan qarşıdurmalar şiddətləndi və nəhayət çərçivədən çıxaraq, təhqirlərlə, söyüşlərlə əvəzləndi. Bu gün isə sərt qarşıdurma daha amansız xarakter alıb. AXCP - REAL qrupları bir-birlərinə qarşı ən ağır ittihamlar irəli sürürlər. Eyni ağır vəziyyət AXCP-Müsavat arasında da yaşanır. Ə.Kərimli ağır vəziyyətdə olduğu üçün Müsavatla olan qarşıdurmaları gizlətməyə çalışsa da istəyinə nail ola bilmir. Lakin görünən fakt ondan ibarətdir ki, hər məqamda A.Hacılı və müsavatçı funksionerlər açıq şəkildə Ə.Kərimlini tənqid edir, onu müxalifətin inteqrasiyasına mane olmaqda günahlandırılar.

### Gülağa Aslanlı: "Bizim AXCP sədri Əli Kərimliyə ünvanladığımız suallar hələ ki, cavablandırılmayıb"

AXCP ilə Müsavat 7 fevral 2024-cü il də keçiriləcək növbədənkənar prezident seçkilərini boykot çağırışı ilə çıxış edirlər. Əslində bu yanaşma AXCP ilə Müsavatın eyni mövqedən çıxış etmələri anlamı yaratmamalıdır. İstər Ə.Kərimli istərsə də A. Hacılı seçkilərə qatılmaq üçün özlərində potensial görmədiklərində boykot qərarını ortaya qoyublar. Bununla da öz zəifliklərini və məğlubiyyətlərini etiraf edirlər. Sadəcə özlərində qətiyyət tapmadıqları üçün məğlubiyyətlərini etiraf edə bilmirlər. Digər tərəfdən xarici maraqlı dairələrin əlində alət olduqlarından zəifliklərini açıq şəkildə dilə gətirmirlər. Əks halda xarici maraqlı dairələr onlardan imtina edə bilər. Bu isə dağıdıcı müxalifətin maddi və mənəvi dəstəkdən məhrum olması deməkdir. Ona görə də, zəifliklərini boykot kimi anormal iddia ilə əvəzləyiblər. Əslində Ə.Kərimli ilə A.Hacılı düşmən olaraq qalırlar. Tərəflər birbirini qəbul etmək fikrində deyillər. Əgər qəbul etsə idilər, bir araya gəlib, masa ətrafında müxalifətin ağır duruma düşməsinin səbəbləri ətrafında müzakirələr aparardılar. Belə bir xoşməramlı istək gözlənilmir. Deməli Müsavatla AXCP arasında qarşıdurma davam edir. Yəqin ki, mövcud qarşıdurma 2024-cü il də daha amansız və gərgin xarakter alacaq. Çünki, Müsavat başqanın müavini Gülağa Aslanlının "bizim AXCP sədri Əli Kərimliyə ünvanladığımız suallar hələ ki, cavablandırılmayıb" deyə bildirməsi perespektivdə tərəflərarasında yeni qarşıdurmanın baş verəcəyindən xəbər verir.

***İLHAM ƏLİYEV***

---



# 2023 iki hadisə ilə unudulmayacaq...

**MƏTANƏT**

**Bu, mənim fikrimdir, lakin ümidvaram ki, fikrimlə həmrəy olan minlərlə insan var. Bəli, 2023-cü il iki əsas hadisə ilə əsla unudulmayacaq. Onlardan birincisi bu ilin sentyabr ayının 20-də Xankəndidə aparılan antiterror tədbirləridir ki, bununla 2020-ci ildə başlayan İkinci Vətən müharibəsi tamamlanmış oldu. 30 il işğal altında qalan torpaqlarımız bütövlükdə azad edildi. Konstitusiya quruluşumuz, ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olundu.**

Eləcə də 30 il ərzində canlarını Azərbaycanın bütövlüyü naminə qurban vermiş şəhidlərimizin, sağlamlığını ömürlük itirmiş qazilərimizin, 30 il ərzində məcburi köçkün kimi yaşamağa vadar edilmiş soydaşlarımızın qisası alındı. Ümumilikdə isə bütün azərbaycanlıların qisası alındı. Çünki onların hər biri şəhid ana-atası, bacı-qardaşı, yaxın qohumu, bütövlükdə isə torpaqlarına və soydaşlarına düşmən tərəfindən zülm edilmiş insanlardır. Bu səbəbdən də 2023-cü il dövlətimizin başçısı cənab İlham Əliyevin 20 ilin əvvəlində başladığı işin müvəffəqiyyətlə sona çatması, erməni qəsbkarlığına son qoyulması, sərhədlərimizin möhkəmləndirilməsi ili kimi tarixin şanlı səhifələrinə yazıldı. Çünki bu tarix bizim şərəf tariximizdir. Torpağı-namusu düşmən tapdağı altında olan xalq heç vaxt başını dik tutub yaşaya bilməzdi. Müzəffər Ali Baş Komandanımız bu yükü böyük bir xalqın çiyinlərindən qaldırdı. Xalqına Zəfər bəxş etdi. Tarixin 270 illik axarını dəyişdi. Və elə adını da tarixin səhifələrinə qızıl hərflərə yazdı.

20 sentyabr Xankəndinin, Xocalının, Xocavəndin, Əsgəranın, Ağdərənin günü oldu. Gözləri Zəfər yolunda qalan bu ərazilərimizin Vətənə qovuşması günü oldu.

***

İkinci yaddan çıxmayan hadisə isə AXCP sədri Əli Kərimlinin ermənilərin torpaqlarımızı işğal etməsini əldə etdiyimiz Zəfərdən üstün tutmasıdır. Bunu tarix də, zaman da, biz azərbaycanlılar da əsla unutmamalıyıq. Ona görə ki, bu, birinci qədirbilməzlik, ikinci böyük səhv, üçüncü isə torpaqlarımızın işğalına yol açanların utanmadan danışmasıdır. Nə üçün ermənilərin işğalı bizim qələbədən üstün idi? Axı ermənilər əslində torpaq işğal etməmişdi, bu torpaqlar onlara qızıl teştdə hədiyyə olunmuşdu. Yəni bunu Azərbaycanda bilməyən var ki, Əli Kərimli bu cür əttökən, tarixin ləkəsi olan cümlələr qurur. Xalqın övladlarının qanı, sağlamlığını itirməsi bahasına əldə olunan Zəfəri bu qədər təhqir etməklə Əli Kərimli nə düşünür? Yəni illərlə hakimiyyətdə olmağa can atıb, lakin buna müvəffəq ola bilməyən adam bütün bunun acığını xalqından çıxıb onun 30 ildən sonra qazandığı Zəfərə bu qiyməti verər?

Əli Kərimlinin bu sayıqlaması 2023-cü il tarixinin qara bir səhifəsini təşkil edir. Xalqın qələbə üzərindən qələbə sevinci yaşadığı, torpaqlarına qovuşduğu, soydaşlarımızın Böyük Qayıdışla yurdlarına qayıtdığı, bunu toy-bayram etdiyi bir dövrdə Əli Kərimli bu cümlələrlə yalnız özünü biabır etdi. Kimliyini, xislətini, dövlətə və dövlətçiliyə, xalqa-millətə acıqlı olmasını ortaya qoydu. Və bir də tək ona nail oldu ki, bu fikirləri 2023-cü ilin unudulmayacaq hadisəsinə çevrildi.

Biz 2020-ci ildən qələbələrlə yaşayırıq. Bu qələbələr 2024-cü ildə də davam edəcək. Bizi qarşıda uğurlu, sevincli günlər gözləyir. Əli Kərimli kimilər bizim Zəfərimizə, sevincimizə, ölkəmizin inkişafına kölgə sala bilməz. Çünki biz xalq olaraq 30 il əvvəli də görmüşdük, 30 il sonranı da görürük və çox düzgün nəticə çıxarırıq. Yaşasın unudulmayan 20 sentyabr!

Ar olsun Əli Kərimli fikirlərinə!

---

# "Fransa Azərbaycana olan nifrətini gizlədə bilmir"

"Fransanın Azərbaycana qarşı apardığı siyasət riyakarlıqdan başqa bir şey deyil. Dünyanın tanınmış, qüdrətli dövlətlərindən biri bu gün yeni müstəqillik qazanmış ölkəyə qarşı bütün sahələrdə mübarizə aparır. Hərçənd ki, Azərbaycan və Fransanın milli maraqlarının kəsişdiyi və yaxud da zidiyyət təşkil etdiyi bir məsələ yoxdur". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Deputat bildirib ki, Fransa bu gün həm beynəlxalq hüquqa, həm mənəviyyat prinsiplərinə zidd olaraq Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının müdafiəçisi rolunda oynayır: "Bununla Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alır, ərazilərimizdə separatçı bir qurumun fəaliyyət göstərməsini tələb edir. Əlbəttə Azərbaycan müstəqil bir dövlət olaraq Fransanın bu istəklərini heç bir zaman qəbul edə bilməz. Fransanın son dövrlər həm daxili, həm xarici siyasətində çox ciddi problemlər var. Makron adminstrasiyası ictimaiyyətin fikrini bu problemlərdən uzaqlaşdırmaq üçün özünə bir hədəf seçib. Amma bununla həm də özünə problem gətirən hədəf seçib.

Fransanın bütün cəhdlərinə baxmayaraq, anti-Azərbaycan qərarları qəbul etməsi mümkün olmur. BMT TŞ-də aparılan müzakirələr hər hansı bir düşmənə qəbul etmədən, TŞ-nin üzvlərinin böyük əksəriyyətinin Azərbaycanı müdafiə etməsi ilə nəticələndi. Fransa şirkətləri öz hökumətlərinin yanlış siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatında özlərinə yer tuta bilmirlər. Fransanın bu hərəkəti yüzlərlə, minlərlə Azərbaycan gənclərinin Fransa universitetlərindən imtina etməsinə səbəb olur. Azərbaycanın qətiyyətlə öz müstəqilliyi və suverenliyini qoruması Fransanın əsəblərini tarıma çəkir və Azərbaycana olan nifrətini gizlədə bilmir".

***Səbinə Hüseynli***

# Ermənistan iki od arasında və asılı mövcudluğun həzzi içində

*Rusiyalı və amerikalı eskpertlərin şərhi*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*












Kollektiv Qərb Ermənistana münasibətdə KTMT mexanizmlərini əvəz edə biləcək belə öhdəliklər götürməyə hazır deyil. Bunu Ermənistan blokundan olan deputat Anna Qriqoryan erməni KİV-ləri ilə söhbətində deyib. "Bütün baş verənlərə əsaslanaraq məntiqli sual səslənir: Paşinyan, əgər KTMT-nin iclaslarını boykot edirsənsə, şikayət edirsənsə, anti-Rusiya ritorikası ilə məşğul olursan, onda niyə Təşkilatı tərk etmirsən? Bu yaxınlarda avropalı parlamentarilərdən biri bizimlə görüş zamanı dedi: "Biz ona bu sualı verdik və cavab aldıq ki, ciddi geosiyasi mərkəzlər, yəni ABŞ deyir ki, hələlik KTMT-dən çıxmağa ehtiyac yoxdur", - Qriqoryan qeyd edib.

Sual həqiqətən aktualdır. Artıq bir ildən çoxdur ki, bu qaranlıq əhvalat İrəvanın bu hərbi bloka etimadsızlığı, bu təşkilatın Azərbaycanla müharibəyə girmədiyi barədə ittiham xarakterli bəyanatları və s. ilə uzanır. Yaz-yay aylarından İrəvandan Ermənistanın tezliklə KTMT-dən tamamilə çıxacağına və Qərbdə hərbi tərəfdaşlar tapacağına dair eyhamlar gəlir. Ancaq nədənsə o, hələ də bu təşkilatı tərk etməyəcək - belə qəribə ikiliyi necə izah etmək olar? İrəvan hansısa oyun oynayır, kimisə aldatmağa çalışır? Yaxud doğrudan da Vaşinqton Paşinyana bu bloku tərk etməməyi tövsiyə edə bilərdi? Hansı məqsədlər üçün? Amerikanın buna niyə ehtiyacı ola bilər?

Bu barədə xarici ekspertlər "Caliber" aanalitik mərkəzinə fikirlərini bölüşüblər. Şərhləri oxucularımıza təqdim edirik.

Rusiyalı politoloq, "Truly" portalının baş redaktoru Ruslan Aysin qeyd edir ki, Ermənistan həqiqətən böyük siyasətin subyekti olmadığına görə, görünür, ona müxtəlif təsir mərkəzlərindən (istər Vaşinqton, istərsə də Brüssel, Paris və ya Moskva və s) deyilənləri, sifarişlər icra edir.

"Bu, sadəcə, tipik göstəricidir. Əgər Ermənistan müstəqil qərar qəbul etsəydi, öz maraqlarından çıxış edərdi. Burada aydın görünür ki, hamının xoşuna gəlməyə çalışan rəsmi İrəvan faktiki olaraq özünü öz milli yönümlü siyasətini aparmaq və Azərbaycanla normal münasibətlər qurmaq imkanından məhrum edir. Çünki maraqlı qüvvələr var ki, təbii ki, bu regionda heç bir əmin-amanlıq və sülh istəmirlər və Ermənistandan özlərini yersiz apararaq bu qədər qorxunc ("qorxulu uşaq") olmasını tələb edirlər".

Aysin qeyd edir ki, Paşinyan dəfələrlə bildirib ki, KTMT öz öhdəliklərini yerinə yetirmir və ona görə də bu təşkilatda qalmağın mənası yoxdur.

"Lakin bu sözlərin ardınca heç bir əməl, konkret və əsaslı qərarlar verilmədi. Bu isə bir daha onu göstərir ki, İrəvanın heç bir strategiyası yoxdur- bu gün belədir, sabah elədir. Bu gün deyirlər- biz Azərbaycanla sülh müqaviləsi bağlayacağıq, sabah hansısa qüvvələr işə qarışır və Paşinyan və komandası qaynar tavada fırlanmağa başlayır.

Əslində hər kəsə aydındır ki, KTMT Ermənistan üçün ölü doğulmuş layihədir, ona faydası yoxdur, amma həqiqətən heç kim Paşinyana heç bir təminat vermir (nə Aİ, nə də ABŞ), ancaq bəzi vədlərlə qidalandırırlar, ona görə də erməni səlahiyyətlilər bu birliyi tərk etməkdən qorxurlar.

Mən hesab edirəm ki, deputat Qriqoryanın amerikalıların Ermənistanın KTMT-dən çıxmasına imkan verməməsi barədə bəyanatı böyük qardaşın kürəyi arxasında gizlənmək cəhdidir. Reallıqda İrəvanın özü də istəmir, çünki necə irəliləyəcəyini başa düşmür, heç kim heç bir zəmanət vermir, amma burada heç olmasa KTMT-nin əncir yarpağının arxasında gizlənib Moskvaya şikayət etmək, zəng etmək və ya müraciət etmək olar. Yəni eyni vəziyyət- "get ora, bilmirəm hara" görünür.

İrəvanın, ümumiyyətlə, vektoru yoxdur. Baxmayaraq ki, ondan artıq açıq-aydın və kifayət qədər konkret olaraq Bakı və Ankara ilə dostluq tələb olunurdu. Hər cür iqtisadi və infrastruktur layihələrində iştirak təklif edildi. Onda İrəvan iqtisadiyyatını böyüdəcək, "böyük Ermənistan" xəyallarını unudacaq və ölkə normal yaşayacaqdı. Amma artıq dediyim kimi, dünya təsir mərkəzlərinin bunda marağı azdır, çünki onlar Azərbaycana, Türkiyəyə təzyiq etməlidirlər və ona görə də Ermənistanla istədikləri kimi oynayırlar", - Aysin əmindir.

Amerikalı politoloq Endryu Korıbko öz növbəsində bildirib ki, ABŞ Ermənistanı Rusiyadan öz tərəfinə çəkir və indiyədək onlar İrəvanı KTMT-də iştirakını qeyri-rəsmi şəkildə ləngitməyə inandıra biliblər, baxmayaraq ki, Vaşinqton çətin ki, bu qarşılıqlı müdafiə paktından çıxmağı bu ölkəyə rəsmi şəkildə məsləhət görsün.

"Səbəblər praqmatikdir, yəni: Ermənistanın KTMT-dən tez bir zamanda NATO-ya keçə biləcəyini təsəvvür etmək siyasi baxımdan qeyri-realdır, çünki sonuncuya üzvlük bütün mövcud üzvlərin təsdiqini tələb edir.

Rusiyanın təhlükəsizlik zonasından NATO-ya keçidi zamanı nəinki Ermənistan müdafiəsiz qalacaq, həm də Türkiyə və bəlkə də digər ölkələrin İrəvanın istəyini dəstəkləməsi çətin olacaq. Bu, qəribə vəziyyətə gətirib çıxarır ki, Ermənistan NATO üzvü Fransa ilə hərbi əlaqələri genişləndirdiyi üçün KTMT-də iştirakını qeyri-rəsmi olaraq dayandırıb, lakin onun təhlükəsizliyi Rusiyanın hüquqi məsuliyyəti olaraq qalır. Sıfır məbləğli oyun nöqteyi-nəzərindən bu razılaşma Rusiyadan daha çox Ermənistan və NATO-ya sərf edir", - analitik deyir.

Onun sözlərinə görə, Moskva çətin ki, Ermənistanı blokdan çıxarsın, çünki o, digər üzvləri qorxutmaq istəmir və Yerevanın sonda öz hərəkətlərinə yenidən baxacağına ümid edir.

"Çox güman ki, bu status-kvo qeyri-müəyyən müddətə qalacaq, xüsusən də KTMT və NATO-nun müvafiq hesablamaları ilə izah edilən səbəblərə görə. Bu zaman Ermənistan geosiyasi qeyri-müəyyən vəziyyətə düşəcək ki, bu da onun gələcəyi ilə bağlı qeyri-müəyyənliyə gətirib çıxaracaq və ola bilsin ki, xarici investorları qorxudacaq", - deyə Endryu Korıbko yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
31 dekabr
2023-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Sosial şəbəkələrdə söyüş söymək təhqir hesab edilir"



"Cinayət Məcəlləsinin 147-ci və 148-ci maddələri böhtan və təhqirlə bağlı məsuliyyətləri müəyyən edir. Həmçinin, Konstitusiyada birbaşa müəyyən edilib ki, hər bir şəxsin şərəf və ləyaqətinin toxunulmazlığı hüququ var. Kiminsə şərəf və ya ləyaqətinin pozulması-na, alçaldılmasına, qeyri-insani rəftara görə cəzalar müəyyənləşdirilib. Sosial şəbəkələrdə söyüş söymək də təhqir hesab edilir. Mövcud qanunvericiliyə əsasən, təhqirə görə birbaşa məhkəməyə müraciət olunur. Təhqirə məruz qaldığını bildirən şəxs xüsusi ititham qaydasında məhkəməyə müraciət edib sosial şəbəkədə istifadəçi profili məlum olan şəxsin cinayət məsuliyyətinə xüsusi ittiham qaydasında cəlb edilməsini tələb edə bilər". SİA xəbər verir ki, bu sözləri açıqlamasında vəkil Orxan Əhmədov deyib.





Hüquqşünas əlavə edib ki, əgər sosial şəbəkədə təhqirin saxta profil (istifadəçi) tərəfindən edilməsi müəyyən edilərsə, bu zaman prokurorluğa müraciət edilməlidir: "Cinayət Məcəlləsinin 148-1-ci maddəsi məhz saxta profillərlə bağlı məsələni nəzərdə tutur. Belə ki, əgər istifadəçinin şəxsiyyətini müəyyən etmək mümkün olmursa, şikayətçi ərazi üzrə ictimai-xüsusi ittiham qaydasında prokurorluğa müraciət etməlidir. Prokurorluq orqanı istifadəçinin kimliyinin müəyyən edilməsi məqsədilə araşdırma aparır, müvafiq İP ünvanları müəyyən edilir və saxta profildən istifadə edərək təhqir edən şəxsin kimliyi müəyyən edilir. Bundan sonra həmin şəxsin prokurorluq tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi həll edilir".

*Ləman Sərraf*

## Miodraq Bojoviç: "Neftçi" Azərbaycanın ən böyük və tarixi klubudur



"Neftçi"nin yeni baş məşqçisi Miodraq Bojoviç klubun mətbuat xidmətinə açıqlama verib. O "Neftçi" azarkeşlərini və Azərbaycan xalqını Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəliyi Günü münasibətilə təbrik edib: "Bütün "Neftçi" azarkeşlərini və Azərbaycan xalqını Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəliyi Günü münasibətilə təbrik edirəm. Ümid edirəm ki, qarşıdan gələn 2024-cü il komandamız üçün uğurlu və düşərli olacaq. "Neftçi" Azərbaycanın ən böyük və tarixi klubudur Bu ildə qarşıya qoyduğumuz hədəflərə birlikdə çatacağımıza inanıram. Bayramınız mübarək!"

Qeyd edək ki, Miodraq Bojoviç dekabrın 24-də "Neftçi"nin baş məşqçisi təyin olunub. O, bu postda rumıniyalı Adrian Mutunu əvəz edib.




# "Duzlaşma kimi tanınan xəstəlik dizlərin osteoartrozudur"

## HƏKİM

"Diz ağrısı əhali arasında ən çox edilən şikayətlərdəndir. El arasında duzlaşma kimi tanınan xəstəlik əslində dizlərin osteoartrozudur". Bu sözləri SİA-ya açıqlamasında həkim fizioterapevt Şəhla Qafarova deyib. Onun sözlərinə görə, burada diz oynaqlarında qığırdaq qatı aşınır, hətta bəzən sümük təbəqəsində belə aşınma müşahidə edilir: "Xəstənin şikayətləri dizlərdə gücsüzlük, yorğunluq, ağrı, yeriyərkən "xırçıltı" səsi ilə bağlı olur. Problem irəlilədikcə isə hərəkət məhdudiyyəti yaranır.

Yaş artdıqca isə oynaqlarda problem daha da artır. Oynaq ətrafında şişkinlik müşahidə edilir və oynaqda əyrilik əmələ gəlir. Bu əyrilik isə rentgen müayinə zamanı müşahidə olunur, xəstə özünü narahat hiss edir və əmək qabiliyyətini itirir.

Oynaqda sərtlik və hərəkət məhdudiyyəti yaranır. Bu halda əvvəllər tez bir zamanda aradan qalxacaq problem, daha sonra cərrahi əməliyyata belə səbiyyət verir. Nəticədə xəstənin sosial həyatı pozulur, əmək fəaliyyəti korlanır. Oynaq mayesində qığırdaqların strukturunu dağıdan maye, reaktiv oksigen radikalları və metobalik məsullar qığırdaqları daha da məhv edir. Buna görə də xəstəliyin ilk mərhələsində fizioterapiyaya müraciət edilməsi məqsədəuyğundur. Əks təqdirdə xəstələyin aradan qaldırılması üçün cərrahi əməliyyata ehtiyac duyulacaq".


## Elan

"PİRQULU PARK HOTEL" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ ( VÖEN 1503239651 ) nizamnamə kapitalının 2 000 000.00 (iki milyon) manat azaldığını elan edir. Azalmadan sonra cəmiyyətin nizamnamə kapitalının məbləği 78 192 666 .00 (yetmiş səkkiz milyon bir yüz doxsan iki min altı yüz altmış altı ) manat təşkil edir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4000